QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 236 (5708) **13 dekabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# "Heydər Əliyevin ömür yolu müasir Azərbaycanın tarixidir"

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib*




Səh 2

5

"Ulu Öndər Heydər Əliyev tarix boyu xatırlanacaq"



5

Azərbaycan ilə İran arasında sərhəd mühafizəsi sahəsində əməkdaşlığın genişləndirilməsinə dair protokol imzalanıb



8

Ulu öndər Heydər Əliyevin xatirəsi Azərbaycan xalqı üçün əziz və müqəddəsdir



# "Heydər Əliyevin ömür yolu müasir Azərbaycanın tarixidir"

## *Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib*





***Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 15 il keçir. AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.***

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər. Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu. Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada Heydər Əliyevin ömür yolu müasir Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaq.

Ulu Öndərin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. Əfsanəvi şəxsiyyət, ulu öndər, böyük rəhbər, ümummilli lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqın sevimli, unudulmaz övladı... Bu ifadələrin hamısı yalnız ona aiddir, yalnız onun ünvanınadır. Çünki o, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana tanıtdı. O, Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub yaratdı. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli lideri zirvəsinə yüksəltdi, dünya siyasətinin nəhənglərindən birinə çevirdi. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

Ardı Səh. 3

# “Heydər Əliyevin ömür yolu müasir Azərbaycanın tarixidir”

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib*









Əvvəli-Səh-2

“Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olmuşdur”, - deyən ulu öndər Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxardı. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasi xadimlərindən biri idi. Buna görə də “Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan”, - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi və Vətəninə qayıtdı. Bu qayıdış isə daha möhtəşəm oldu. Ulu Öndər xalqımızı öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Hər kəsi sözünün qüdrəti ilə inandırdı. Sözünü əməlləri ilə gerçəyə çevirdi. Uzaqgörən, müdrik siyasəti ilə Azərbaycanı fəlakətlərdən xilas etdi. O, sözün həqiqi mənasında, xalqının xilaskarına çevrildi.

Meydana silahsız gələn bu dahi insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri, özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi. O, uzunömürlü bir dövlətçilik məktəbi və bu məktəbi ondan sonra davam etdirə biləcək bir şəxsiyyət qoyub getdi. Bu şəxsiyyət Ulu Öndərin siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevdir.

# “Azərbaycan mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib”

*Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Rusiya ilə NATO yüksək hərbi rəhbərliyi arasında görüşün keçirilməsi üçün Bakının seçilməsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu, bizim ölkəyə hörmətin, etimadın göstəricisidir və bir daha Azərbaycanın dünyada sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edən mühüm beynəlxalq tədbirlərin müntəzəm olaraq keçirildiyi məkana çevrildiyini göstərir və Azərbaycan bunu yüksək qiymətləndirir. Dövlətimizin başçısı Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətinin səfərinin eyni zamanda Azərbaycan-Rusiya əlaqələri ilə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını dedi. İkitərəfli münasibətlərimizin bütün sahələrdə, o cümlədən hərbi sahədə çox uğurlu və dinamik şəkildə inkişaf etdiyini deyən Prezident İlham Əliyev yüksək səviyyədə keçirilən görüşlərin əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını bildirdi. Təkcə bu il Azərbaycan və Rusiya dövlət başçıları arasında çoxsaylı görüşlərin keçirildiyini vurğulayan Prezident İlham Əliyev son dəfə Sankt-Peterburqda Rusiya Prezidenti ilə təmaslarını məmnunluqla xatırladı. Dövlətimizin başçısı bu il, eyni zamanda, ölkələrimiz arasında xeyli sayda sazişlərin və sənədlərin imzalandığını vurğulayaraq, qarşılıqlı fəaliyyətin səviyyəsinin daha da yüksəldilməsi məqsədilə ölkələrimiz tərəfindən əldə olunmuş razılıqların icra edilməsinin önəmini qeyd etdi və buna nail olunduğunu bildirdi. Rusiya ilə Azərbaycanın dostluq münasibətlərinin tarixi sınaqlardan çıxdığını qeyd edən Prezident İlham Əliyev bu gün ölkələrimizin etibarlı tərəfdaş olduğunu, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın yüksək səviyyəyə qalxdığını dedi və Valeri Gerasimovun ölkəmizə səfərinin bu sahədə əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günündə dövlətimizin başçısı ilə görüşünü yüksək qiymətləndirdi. O, Ulu Öndərin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarlarını ziyarət və xatirələrini ehtiramla yad edəcəklərini vurğuladı. NATO və ABŞ nümayəndələri ilə artıq neçənci dəfədir ki, Bakıda görüşdüklərini qeyd edən Valeri Gerasimov paytaxtımızın bunun üçün çox münasib bir məkan olduğunu və bu cür görüşlər üçün burada hər cür şəraitin yaradıldığını vurğuladı.

İkitərəfli münasibətlərə toxunan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahədə uğurla inkişaf etdiyini bildirdi. Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.







# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Vyetnamda səfərdədir



***Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Vyetnamda səfərdədir. AZƏRTAC xəbər verir ki, YAP-ın beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyevanın rəhbərlik etdiyi nümayəndə heyətinə Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Hadi Rəcəbli, Milli Məclisin deputatları Mirzəcan Xəlilov və Sevinc Hüseynova, YAP Gənclər Birliyi ofisinin rəhbəri Fərid Nəsibov daxildir.***

Nümayəndə heyəti ilk olaraq Vyetnam Kommunist Partiyasının xarici əlaqələr komissiyasının sədri Hoang Binh Quan ilə görüşüb. Sonra YAP nümayəndə heyətinin üzvləri Vyetnam Kommunist Partiyası Siyasi Bürosunun üzvü, kütləvi səfərbərlik üzrə mərkəzi komissiyanın rəhbəri xanım Truong Thi Mai ilə görüş keçiriblər.

Görüşlərdə partiyalar arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə edilib, eləcə də əlaqələrin inkişaf perspektivləri müzakirə olunub. Qeyd edilib ki, bir neçə il öncə tərəflər arasında əməkdaşlıq haqqında Memorandumun imzalanması münasibətlərin inkişafında vacib rol oynayır. Həmçinin hər iki ölkənin hakim partiyalarının ICAPP çərçivəsində fəal əməkdaşlığının əhəmiyyəti vurğulanıb. Görüşlərdə Vyetnamın Azərbaycandakı inkişaf proseslərini diqqətlə izlədiyi bildirilib və bu ilin aprel ayında Azərbaycanda keçirilən prezident seçkilərində YAP-ın Sədrinin parlaq qələbə qazanmasının xalqın bu partiyaya inamının ifadəsi kimi dəyərləndirilib.

Həmçinin YAP nümayəndə heyətinin Vyetnama səfərinin hakim partiyalar arasında əməkdaşlığın inkişafına töhfə verəcəyinə inam ifadə olunub və qarşılıqlı səfərlərin davam etdirilməsinin vacibliyi vurğulanıb. Daha sonra YAP-ın nümayəndə heyəti Vyetnam Milli Assambleyasının xarici əlaqələr komitəsinin rəhbər şəxsləri ilə görüşüblər. Görüşlərdə parlamentlərarası əlaqələrin inkişafı, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Dekabrın 12-də isə nümayəndə heyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Azərbaycanın Vyetnamdakı səfirliyini ziyarət ediblər. Qeyd edək ki, YAP nümayəndə heyətinin Vyetnama səfəri dekabrın 14-də başa çatacaq.

# “Ulu Öndər Heydər Əliyev tarix boyu xatırlanacaq”



“Azərbaycan xalqının yetirdiyi ən böyük şəxsiyyətlərdən biri olan Heydər Əliyev tarix boyu xatırlanacaq”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin sədr müavini Bahar Muradova deyib. Ümummilli lider Heydər Əliyevin hər gün həm Azərbaycan vətəndaşları, həm də ölkəyə gələn qonaqlar tərəfindən yad olunduğunu deyən Milli Məclisin sədr müavini söyləyib ki, Dahi şəxsiyyətin keçdiyi həyat yolu hər kəs tərəfindən daim xatırlanaraq dəyərləndirilir.

O bildirib ki, Ümummilli lider Heydər Əliyev Azərbaycanın ən çətin dövründə ikinci dəfə hakimiyyətə gəlib: “Onun birinci dəfə hakimiyyətə gəldiyi dövr də asan olmayıb. O zaman Azərbaycan iqtisadi və sosial çətinlikləri olan, ittifaq miqyasında geridə qalan, aqrar respublika xarakteri daşıyan bir ölkə idi. Həm o dövrdə, həm də ikinci hakimiyyəti dövründə Ulu Öndər Heydər Əliyev Azərbaycana çiçəklənmə, inkişaf, rifah gətirib və ölkəmizi inkişaf edən ölkələr sırasına çıxarıb”.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətinin ikinci dövrünün Azərbaycan üçün xüsusilə əhəmiyyətli olduğunu deyən B.Muradova söyləyib ki, çünki Ulu Öndər məhz bu dövrdə Azərbaycan dövlətinin müstəqilliyini xilas edərək onun əbədiliyini, dönməzliyini təmin etdi: “Bu gün bu işin başında siyasi varis, Prezident İlham Əliyev dayanır. Azərbaycanın gələcəyi parlaqdır, parlaq gələcəyin də qurucusu birmənalı olaraq Ulu öndər Heydər Əliyevdir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursu bu gün Prezident İlham Əliyev tərəfindən daha da modernləşdirilir, müasir beynəlxalq münasibətlər sisteminə uyğunlaşdırılır və inkişaf etdirilir”.

# Azərbaycan ilə İran arasında sərhəd mühafizəsi sahəsində əməkdaşlığın genişləndirilməsinə dair protokol imzalanıb



İran İslam Respublikasının Sərhəd Qoşunlarının Komandanı, general-mayor Qasım Rzayinin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasına səfəri çərçivəsində Dövlət Sərhəd Xidmətində (DSX) keçirilmiş görüşlərin, aparılmış müzakirələrin və əldə olunmuş razılaşmaların nəticələrinə dair protokol imzalanıb.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, protokolu DSX rəisi, general-polkovnik Elçin Quliyev və general-mayor Qasım Rzayi imzalayıblar.

Protokolda tərəflər arasında sərhəd mühafizəsi sahəsində əməkdaşlığın genişləndirilməsi, dövlət sərhədindən buraxılış məntəqələrində vətəndaşların hərəkətinin daha da asanlaşdırılması, dövlət sərhədində qanunsuz fəaliyyətin, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinin və qeyri-leqal miqrasiyanın, transsərhəd cinayətkarlığın digər növlərinin qarşısının alınması üzrə məlumat mübadiləsinin həyata keçirilməsi nəzərdə tutulub.

Səfər çərçivəsində qonaqlar Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkil etdiyi çövkən milli atüstü oyunu üzrə Prezident Kuboku turnirində “Sərhədçi” və “Omar” komandalarının qarşılaşmasına baxıblar. General-mayor Qasım Rzayinin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri başa çatıb.



# Əli Həsənov: “Nə qədər ki Azərbaycan var, Heydər Əliyev də olacaq”

***Ümummilli lider Heydər Əliyevin vəfatının 15-ci ildönümü tamam olub. Bununla bağlı prezidentin köməkçisi, vaxtilə Heydər Əliyevlə birgə çalışmış tarix elmləri doktoru, professor Əli Həsənov onun Azərbaycan üçün etdiyi xidmətlər haqda məqalə yazıb. Həmin yazını təqdim edirik:***



Ümummilli lider Heydər Əliyevin vəfatından 15 il ötür. Zaman bizi o ağır gündən sürətlə uzaqlaşdırsa da, müasir Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri yaddaşlara dərindən hopmuş, hər bir azərbaycanlının qəlbində silinməz iz qoyaraq tariximizin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Heydər Əliyevin həyat yolunun möhtəşəm salnaməsini vərəqləyərkən göz qarşısında Azərbaycan tarixinin çətin və şərəfli bir dövrünün dolğun mənzərəsi canlanır. Xalqımızın yetişdirdiyi bu dahi şəxsiyyətin bütün fəaliyyətinin Azərbaycanın inkişaf yolu ilə sıx vəhdət təşkil etdiyini bir daha aydın şəkildə görürük.

Azərbaycanın görkəmli siyasi və dövlət xadimi Heydər Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində anadan olmuşdur. O, 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir. Bununla da Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü başlanmışdır. Heydər Əliyev ilk günlərdən respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyin əsaslı surətdə yaxşılaşdırılması, dövlət və əmək intizamının möhkəmləndirilməsi, kadrların məsuliyyətinin artırılması və korrupsiyaya qarşı mübarizənin yeni xəttini müəyyən etmişdir. Bu xətt sonrakı dövrdə daha da təkmilləşdirilmiş, respublikanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatına mənfi təsir göstərən meyillərin qarşısının alınması, sağlam mənəvi-psixoloji mühitin bərqərar olunması uğrunda fəaliyyət proqramına çevrilmişdir. Onun bilavasitə rəhbərliyi ilə Azərbaycanın iqtisadi inkişaf konsepsiyası hazırlanmış, ənənəvi təsərrüfat sahələrinin səmərəliliyi bərpa edilmiş, yeni istehsal sahələrinin əsası qoyulmuşdur. Bu dövrdə neft-kimya, maşınqayırma, energetika, metallurgiya, mədənçıxarma və digər sahələr əhəmiyyətli dərəcədə inkişaf etməyə başlamış, 400-ə yaxın yeni sənaye obyekti yaradılmışdır. 1969-cu ildə sənaye müəssisələrinin sayı 735-ə bərabər idisə, 1982-ci ildə bu rəqəm 1048-ə çatmışdı.

Heydər Əliyev kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi, bu sahənin daha da ixtisaslaşdırılması, üzümçülük və şərabçılığın inkişaf etdirilməsi, emal müəssisələrinin, irriqasiya və meliorasiya obyektlərinin tikilməsini təmin edərək, o dövrdə aqrar sektorda məhsul istehsalını 2 dəfədən çox artırmağa nail olmuşdur. Beləliklə, ölkənin sosial-iqtisadi həyatında sürətli tərəqqi baş vermiş, Azərbaycan geridə qalmış aqrar respublikadan özünü təmin edən, qabaqcıl aqrar-sənaye respublikasına və mərkəzi büdcənin donoruna çevrilmiş, SSRİ miqyasında ilk üçlüyə yüksəlmişdir. Həmin illərdə respublikada buraxılan 350 adda sənaye və kənd təsərrüfatı məhsulu dünyanın 65 ölkəsinə ixrac edilirdi. O dövrdə yaradılmış iqtisadi potensial müstəqilliyin ilk illərində Azərbaycan iqtisadiyyatının yenidən qurulması üçün baza rolunu oynadı.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi ilk dövrdə (1969-82-ci illər) elm, təhsil və mədəniyyətin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində görülən işlər milli ruhun oyanmasına, azərbaycançılıq məfkurəsinin zənginləşməsinə güclü təsir göstərmiş və gələcəkdə müstəqil dövlətçiliyin bərpası üçün əsaslı zəmin hazırlamışdır.

Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Bakıda və keçmiş SSRİ-nin paytaxtı Moskvada Azərbaycanın tanınmış ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri adlarla qiymətləndirilmiş, abidələri ucaldılmışdır. Həmin illərdə respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirilmiş, SSRİ-nin 170 qabaqcıl ali məktəbinə 3500 azərbaycanlı gənc göndərilmişdir. Heydər Əliyev azərbaycanlı hərbçi kadrların yetişdirilməsinə, respublikada hərbi təhsilin inkişafına xüsusi diqqət ayırmışdır. O dövrdə hazırlanmış yüksək ixtisaslı kadrlar sonralar müstəqil Azərbaycan dövlətinin qurulması, möhkəmləndirilməsi və təhlükəsizliyinə öz töhfələrini vermişlər.

Heydər Əliyev Azərbaycan dilinin respublikanın dövlət dili olması ilə bağlı müddəanın 1978-ci il Konstitusiyasına daxil edilməsinə nail olmuşdur. O, Azərbaycanın bütün bölgələrinin sosial-iqtisadi və mədəni inkişafına daim diqqət göstərmişdir. Heydər Əliyevin məsələlərə kompleks və həssaslıqla yanaşması, habelə çevik idarəçiliyi sayəsində respublikada sosial və milli-dini zəmində heç bir problem yaranmamış, sağlam ictimai-siyasi vəziyyət hökm sürmüşdür.

Heydər Əliyev 1976-cı ilin mart ayında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir. O, həmin yüksək vəzifədə çalışdığı dövrdə 60-dan çox nazirlik, komitə və müxtəlif mərkəzi idarələrin fəaliyyətinə rəhbərliyi həyata keçirmişdir. Lakin 1987-ci ilin oktyabrında Sov. İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib M.S.Qorbaçovun yeritdiyi yanlış xəttə, onun anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir.

Sovet qoşunlarının 1990-cı ilin 20 yanvarında Bakıda törətdiyi qanlı qırğınla əlaqədar Heydər Əliyev ertəsi gün, Kreml rejiminin təqiblərinə və səhhətinin ağır olmasına baxmayaraq, ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək orada bəyanat vermiş, SSRİ hakimiyyətinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi qırğın əməliyyatını pisləmişdir. Mübariz mövqeyini qətiyyətlə davam etdirən Heydər Əliyev Dağlıq Qarabağda separatçıların qanunsuz əməlləri və yaranmış kəskin vəziyyətlə bağlı mərkəzin yürütdüyü ikiüzlü siyasətə etiraz edərək 1991-ci ilin iyulunda Kommunist Partiyasından çıxmışdır.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev Naxçıvana getmiş və həmin ildə Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. Bununla da yenidən ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməyə başlayan Heydər Əliyev 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında təşkilatın sədri seçilmişdir.

Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü, xüsusilə onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışdığı illər (1991-1993) muxtar respublikanın siyasi, sosial-iqtisadi və mədəni inkişafının çətin mərhələsi idi. Heydər Əliyev, ilk növbədə, Naxçıvanı Ermənistanın silahlı təcavüzü və işğalı təhlükəsindən xilas etdi. Blokada şəraitində yaşayan muxtar respublikanın ağır iqtisadi-sosial problemlərini həll etmək üçün qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaratdı. Naxçıvanı Türkiyə ilə birləşdirən “Ümid körpüsü”, İranla yük və sərnişin daşınmasını genişləndirən Şahtaxtı-Poldəşt körpüsü inşa edildi və digər mühüm tədbirlər həyata keçirildi. Bu illərdə həm də Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Ali Məclisi onun adından “sovet”, “sosialist” sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilməsi, 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik günü kimi təsis olunması haqqında qərarlar qəbul etdi.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən, eyni zamanda, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş və Ali Sovetin sessiyalarında fəal iştirak etmişdir. O, Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasındakı (1991-ci il, fevral) çıxışında Vətənin ağır dövründə hər kəsi vətəndaşlıq borcunu vicdanla yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa, dağılmaqda olan Sovet İttifaqında, eləcə də Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti obyektiv təhlil edərək, cəmiyyəti dərindən düşündürən problemlərin, siyasi və iqtisadi böhranın, Dağlıq Qarabağ münaqişəsinin həllinə yardım göstərməyə çağırmışdır. Heydər Əliyev Azərbaycan Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında Moskvanın müttəfiq respublikaları yeni ittifaq müqaviləsinə sürükləyən siyasətinə qarşı çıxmış və deputatları respublika rəhbərliyinin antimüstəqillik əhval-ruhiyyəsini pisləməyə dəvət etmişdir. Həmin dövrdə SSRİ-nin saxlanması məqsədilə keçirilən referendum Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda boykot edilmiş, sovet qoşun hissələri muxtar respublikadan çıxarılmış, 20 yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Sovet İttifaqının saxlanılmasını təbliğ edən Kommunist Partiyasının Naxçıvandakı bütün strukturları ləğv edilmiş, Azərbaycan Ali Sovetinin 1991-ci il sentyabrın 8-nə təyin etdiyi prezident seçkilərinin muxtar respublikanın ərazisində keçirilməsi dayandırılmışdır. Həmin dövrdə erməni millətçilərinin Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddiaları, SSRİ rəhbərliyinin Dağlıq Qarabağı Ermənistana birləşdirmək səylərinin ağır nəticələri, 20 yanvar faciəsi və ondan sonra Azərbaycanda baş verən ictimai-siyasi proseslər, respublikanın kommunist rəhbərliyinin mövqeyi və s. Heydər Əliyevin siyasi fəaliyyətinin başlıca vektorunu milli dövlətçilik ideyasının əsas məqsədinə - müstəqil demokratik dövlət uğurunda mübarizəyə istiqamətləndirmişdir. Hakimiyyət dairələrinin xəyanətkar və səriştəsiz idarəçiliyi nəticəsində 1993-cü ilin may-iyun aylarında ölkədə siyasi böhran son həddə çatdı, respublika vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qaldı. Belə şəraitdə xalqın təkidi ilə Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Beləliklə, onun Azərbaycana rəhbərliyinin ikinci dövrü başladı. Heydər Əliyevin möhkəm iradəsi, idarəçilik məharəti və qətiyyətli siyasi mövqeyi sayəsində Azərbaycan dövlətçiliyinin məhv edilməsi, vətəndaş müharibəsi və ölkənin parçalanması təhlükəsi aradan qalxdı. Həmin gün Azərbaycan tarixinə “Milli Qurtuluş Günü” kimi daxil oldu. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli lider 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən növbəti prezident seçkilərində də böyük səs çoxluğu ilə (76,1 %) möhtəşəm qələbə qazandı.

***Ardı Səh. 7***

# Əli Həsənov: “Nə qədər ki Azərbaycan var, Heydər Əliyev də olacaq”



*“Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan öz geosiyasi, geoiqtisadi və mənəvi-mədəni potensialından səmərəli istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü yaratmağa çalışmış və bununla da ölkənin gələcək dinamik inkişafı üçün əlverişli imkanlar açılmışdır”*

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında, xarici əlaqələrində dönüş yarandı, beynəlxalq norma və prinsiplərə uyğun olaraq müstəqil dövlət quruculuğu prosesi başlandı. Bəzi daxili və xarici qüvvələr tərəfindən hazırlanmış 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi planlarının, habelə şəxsən Heydər Əliyevə sui-qəsd və terror cəhdlərinin qarşısı qətiyyətlə alındı, silahlı yolla hakimiyyətə gəlmək iddialarına son qoyuldu, Azərbaycan dövlətçiliyinin iflası prosesi dayandırıldı, ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar edildi. İşğalçı Ermənistan ilə müharibənin gedişində ciddi dönüşə nail olundu. Azərbaycan qoşunları Füzuli rayonu istiqamətində uğurlu əməliyyat keçirərək Horadiz qəsəbəsini və ətraf kəndləri işğalçılardan azad etdi. Beləliklə, erməni silahlı qüvvələrinin işğalı genişləndirmək planlarının qarşısı alındı, Ermənistan 1994-cü ilin mayında cəbhə xəttində atəşkəs elan edilməsinə və danışıqlar masasına qayıtmağa məcbur oldu.

Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulması, torpaqlarının 20%-dən çoxunun işğalı, 1 milyondan artıq yerli sakinin didərgin salınaraq çadırlarda yaşaması və digər dövlət əhəmiyyətli məsələlər barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, yaranmış problemlərin həlli sahəsində çox gərgin və genişmiqyaslı fəaliyyət göstərmişdir. Heydər Əliyevin fəal diplomatik səyləri nəticəsində dünyanın böyük dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi. BMT TŞ-də, ATƏT-in Budapeşt (1994) və Lissabon (1996) sammitlərində, İƏT-in üzv dövlət başçılarının zirvə toplantılarında Ermənistanın işğalı pisləndi və Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dair sənədlər qəbul edildi.

Heydər Əliyevin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Xüsusi mülkiyyətə geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi və digər fundamental transformasiya proseslərini reallaşdırmaq kimi çətin vəzifələrin həlli Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin yeritdiyi yeni neft strategiyası nəticəsində Azərbaycanın karbohidrogen ehtiyatlarının dünyanın ən qabaqcıl neft şirkətləri ilə birlikdə hasil olunması və xarici bazarlara nəqli məqsədilə 1994-cü il sentyabrın 20-də Bakıda “Gülüstan” sarayında Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi haqqında müqavilə imzalanmışdır. “Əsrin müqaviləsi” bağlandıqdan az sonra Xəzərin digər karbohidrogen yataqlarının işlənməsi ilə əlaqədar 30-dan artıq saziş imzalandı ki, bu da Azərbaycana böyük həcmdə xarici sərmayənin qoyuluşuna imkan yaratdı. İlk beynəlxalq neft müqaviləsi çərçivəsində Bakı-Novorossiysk boru kəməri əsaslı təmir və bərpa olundu, Bakı-Supsa boru kəməri inşa edildi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikilməsi haqqında saziş imzalandı və onun təməli qoyuldu.

Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan öz geosiyasi, geoiqtisadi və mənəvi-mədəni potensialından səmərəli istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü yaratmağa çalışmış və bununla da ölkənin gələcək dinamik inkişafı üçün əlverişli imkanlar açılmışdır. Heydər Əliyevin təşəbbüsü ilə tarixi Böyük İpək Yolunun bərpasına yönəlmiş beynəlxalq proqramın həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamışdır. 1998-ci ilin sentyabrında 32 ölkənin və 14 beynəlxalq təşkilatın yüksək səviyyəli rəhbər şəxslərinin iştirakı ilə Bakıda İpək Yolu konfransı keçirilmiş, layihənin icraçı katibliyinin Azərbaycanın paytaxtında yerləşməsi haqqında qərar qəbul edilmişdir.

Heydər Əliyev demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsində ardıcıl siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə demokratik dəyərləri özündə əks etdirən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi, 1995-ci və 2000-ci illərdə çoxpartiyalılıq əsasında parlament seçkilərinin keçirilməsi, Konstitusiya Məhkəməsinin təşkili, ölüm cəzasının ləğv olunması, mətbuatda senzuranın aradan qaldırılması, yerli özünüidarəetmə orqanlarının-bələdiyyələrin yaradılması kimi köklü islahatlar məhz Heydər Əliyevin siyasi iradəsi və məqsədyönlü fəaliyyəti sayəsində mümkün olmuşdur.

Heydər Əliyevin “İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında” 1998-ci il 22 fevral tarixli Fərmanı insan hüquq və azadlıqlarının təmin edilməsini dövlət siyasəti səviyyəsinə qaldırmışdır. Azərbaycan 1996-cı ilin iyununda Avropa Şurasında “xüsusi qonaq” statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

Heydər Əliyev dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış azərbaycanlıların birlik və həmrəyliyinin yaradılmasına xüsusi əhəmiyyət verirdi. O, Azərbaycan Respublikasının Prezidenti kimi xarici dövlətlərə rəsmi səfərləri zamanı orada yaşayan azərbaycanlıların nümayəndələri görüşlər keçirir, Azərbaycan diasporunun formalaşması və təşkilatlanması üçün ardıcıl və səmərəli tədbirlər görürdü. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 2001-ci il noyabrın 9-10-da Bakıda dünya azərbaycanlılarının ilk tarixi qurultayı keçirilmiş, Azərbaycan diasporunun fəaliyyətinin canlandırılması və gücləndirilməsi sahəsində çox mühüm qərarlar qəbul edilmişdir.

Heydər Əliyevin Azərbaycanda latın əlifbasına keçilməsi, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında 2001-ci ildə imzaladığı fərmanlar, milli-mənəvi dəyərlərin qorunub-saxlanması çağırışı ilə Azərbaycan xalqına müraciətləri və bir sıra digər sahələrdə coşqun fəaliyyəti milli-mədəni inkişafda və mənəvi birliyin möhkəmlənməsində böyük rol oynamışdır.

Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyəti tarixinin dərindən öyrənilməsi və fəaliyyətinin obyektiv qiymətləndirilməsi məsələsinə xüsusi diqqət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin 80 və 85 illik yubileyləri ölkədə geniş qeyd olunmuş, Bakı şəhərində Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında qərar qəbul edilmişdir.

Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində, fərqli ictimai-siyasi, iqtisadi, mədəni və ideoloji şəraitdə xalqına və Azərbaycana sədaqətlə xidmət göstərmiş, istedadını, bilik və bacarığını milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə sərf etmişdir. Azərbaycan xalqı Heydər Əliyevin xidmətlərini daim minnətdarlıqla xatırlayır. Unudulmaz liderimiz Heydər Əliyevin miras qoyduğu zəngin irs, ölməz ideyalar bu gün də yaşayır və bizi inamla gələcəyə aparır. Ulu öndərin özünün də dediyi kimi, nə qədər ki Azərbaycan var, o da olacaqdır. Əminliklə demək olar ki, hazırda Azərbaycanın taleyi etibarlı əllərdədir. Ölkəmiz Heydər Əliyev yolu ilə qətiyyətlə irəliləyir və Prezident İlham Əliyevin rəhbərliyi altında müasir inkişaf tariximizin yeni salnaməsi yaranır.

# Ulu öndər Heydər Əliyevin xatirəsi Azərbaycan xalqı üçün əziz və müqəddəsdir



*Ulu öndər Heydər Əliyevin vəfatından 15 il ötür. Ulu Öndərin xatirəsi hər bir vətənpərvər azərbaycanlı üçün əziz və müqəddəsdir. Çünki Azərbaycanın müasir tarixi, milli dövlətçiliyimiz bu dahi şəxsiyyətin adı ilə sıx bağlıdır. Xalqımız bütün şüurlu həyatını Azərbaycanın tərəqqisinə həsr etmiş Ümummilli Liderini heç vaxt unutmur və unutmayacaq. Dünən təkcə paytaxtda deyil, Azərbaycanın bütün bölgələrində, həmçinin xarici ölkələrdə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş anım mərasimləri keçirilib. Fəxri xiyabana insan axını bütün günü davam edib. Ziyarətçilər buraya həm sonsuz qürur hissi, həm də sarsılmaz inamla gəlirlər. Azərbaycan Heydər Əliyev ideyalarının işığında sürətlə inkişaf edir, onun dünya miqyasında nüfuzu getdikcə artır. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin praqmatik siyasəti nəticəsində ölkəmiz möhtəşəm nailiyyətlər qazanır, ictimai-siyasi sabitlik qətiyyətlə qorunub saxlanılır. Fəxri Xiyabana gələn ziyarətçilərin bir qismi Ulu Öndər Heydər Əliyev haqqında öz fikirlərini SİA ilə bölüşüb:*



**Azərbaycan Respublikasının təhsil nazirinin müavini Firudin Qurbanov:** "Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycanın yaradıcısı və qurucusudur. Bu gün Azərbaycanın sürətli inkişafı məhz Ulu Öndərin qoyduğu təməlin üzərində qurulub. Məhz Heydər Əliyevin uzaqgörən dövlətçilik və idarəçilik siyasəti nəticəsində Azərbaycanın iqtisadi bünövrəsi çox möhkəm təməllər üzərində qurulub. Bu, imkan verib ki, bu gün Azərbaycan sürətlə inkişaf etsin. Azərbaycanda gedən quruculuq işləri, ölkə Prezidentinin apardığı siyasət məhz Heydər Əliyevin uzaqgörən siya-

# Ulu öndər Heydər Əliyevin xatirəsi Azərbaycan xalqı üçün əziz və müqəddəsdir







sətinə uyğun şəkildə aparılır. Təbii ki, bu, öz gözəl nəticələrini verir.

Ümummilli Lider həmişə təhsilə çox böyük diqqət yetirib. Hələ sovetlər dövründə Ulu Öndər bizim gənclərimizi ən nüfuzlu Ali məktəblərə göndərib. Bu gün də o insanlar ölkəmizin aparıcı mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edirlər. Bu gün bu siyasət uğurla davam etdirilir və bizim gənclərimiz xaricdə də dövlət hesabına təhsil alırlar. Bu gün onlar həm dövlət, həm də özəl sektorda uğurla çalışırlar. Bu gün bizim Təhsil Nazirliyinin Yeni Azərbaycan Partiyasının təşkilatı 6 nəfəri Partiyaya üzv qəbul edib. Bu gənclər də Heydər Əliyevin qoyduğu yolla fəaliyyət göstərməyə, yaşamağa söz verdilər. Nə qədər ağır olsa da biz Ümummilli Liderimizdən 15 ildir ki, ayrılmışıq. Amma bu gün biz fərəh hissi ilə qeyd edə bilərik ki, bizim bu səviyyədə dahi Ulu Öndərimiz var. Biz onun yolunu davam etdirməliyik və Azərbaycanın inkişafını təmin etməliyik".

**Əmək və əhalinin sosial müdafiəsi (ƏƏSM) nazirinin müavini Mətin Kərimli:** "Bu gün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatından 15 il ötür. Bu gün hər bir Azərbaycan vətəndaşı kimi ƏƏSM-nin kollektivi də bir nəfər kimi Ulu Öndərin əziz xatirəsini yad edir. Biz artıq anım günü ilə bağlı nazirlikdə də tədbir keçirmişik. Ulu Öndər Heydər Əliyev Azərbaycanda müstəqil dövlətimizin, eyni zamanda Azərbaycanda sosial inkişaf modelinin qurucusudur. 1993-2003-cü illərdə Ümummilli Lider əmək, sosial, müdafiə sahələrində 60-dan çox müxtəlif qanunları, proqramları qəbul edib. Həmin qanunların, proqramların qəbul edilməsi bu gün Azərbaycanın sosial müdafiə sisteminin əsasını təşkil edir. Ulu Öndər hər zaman xüsusilə böhran zamanlarında Azərbaycana rəhbərlik edib. Onun əziz xatirəsi hər bir azərbaycanlının ürəyində daim yaşayacaq. Biz ƏƏSM-nin əməkdaşları daima Ümummilli Liderin xatirəsini əbədi tutacağıq, onun qoyduğu mirası daim yaşadacağıq və Ulu Öndərin davamçısı cənab Prezident İlham Əliyevin siyasətini daim ən yüksək səviyyədə həyata keçirməyə çalışacağıq".

**Ziyarətçi Qurban Nəzirov:** "Ümumiyyətlə Ulu Öndər Heydər Əliyevin Azərbaycan siyasətində, həyatında fəaliyyəti danılmazdır. Ümummilli Lider Heydər Əliyev həddindən ziyadə çox böyük işlər görüb. Ulu Öndərin Sovet illərində gəncləri SSRi-nin bütün ölkələrinə Ali təhsilə göndərməsi xüsusilə də qeyd edilməlidir. Bu gün iqtisadiyyatın demək olar ki, bütün sahələrində həmin gənclər, insanlar çalışır. Bu sahədə mənim böyük xatirələrim var. Çünki o vaxt mən də bir gənc kadr, mütəxəssis kimi Ukraynada təhsil almışam. Sonradan isə öz fəaliyyətimi Azərbaycanda davam etdirmişəm. Bu mənada biz həmişə işlədiyimiz dövrlərdə, tələbəlik illərində Ulu Öndərin qayğısını və diqqətini görmüşük. Məhz onun nəticəsidir ki, biz bu gün gözəl bir həyat yaşayırıq".

**Ziyarətçi Gülbahar Məmmədova:** "Ümummilli Liderimiz öz zəngin siyasəti ilə Azərbaycan dövlətini, xalqını, torpaqlarımızı bütün dünyada tanıtdırdı. Ulu Öndər Heydər Əliyev öz canını bu xalqın yolunda şam kimi qoyub getdi. Bu gün bu gözəllik, yaradıcılıq, quruculuq hamısı Ümummilli Liderimizindir. Ulu Öndər haqqında nə qədər desək də, yazsaq da yenə də azdır. Allah rəhmət eləsin, məkanı cənnət olsun. Ruhu onu istəyənlərə, ona dəstək olanlara və bu gün onun ziyarətinə gələnlərə kömək olsun. Bu gün Azərbaycan xalqının onu yada salmağı, ziyarətinə gəlməyi ona olan hörmət və ehtimaddan xəbər verir. Xalqımız heç zaman Ulu Öndəri yaddan çıxarmayacaq. Həmişə dillərin düyünü, dillərin əzbəri Heydər Əliyevdir".

**Ziyarətçi Gülnar Əmirquliyeva:** "Biz hər il Fəxri Xiyabana gələrək Ümummilli Liderin məzarını ziyarət edirik. Biz bunu özümüzə vəzifə borcu hesab edirik. Ulu Öndərimiz Heydər Əliyevin bizim üçün qoyub getdiyi bu gözəlliyin, azadlığın tayı bərabəri yoxdur. Biz bugünkü xoş günümüzə görə Ulu Öndərə borcluyuq. Nə qədər Azərbaycan xalqı var, bir o qədər də Heydər Əliyev var. Allah ona rəhmət eləsin və yeri behiştlik olsun.

**Ziyarətçi Hacı Rza:** "Mən hər il mütəmadi olaraq Ümummilli Liderimizi ziyarətə gəlirəm. Allah Ulu Öndərimizə rəhmət eləsin. Azərbaycan vaxtilə böhran içərisində idi, ölkəmiz parçalanıb gedirdi. 1990-cı ilin yanvarın 20-də hər kəsi güllələbaran edirdilər. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi ilə ölkəmiz müstəqillik qazandı və inkişaf dövrünü yaşadı. Allah bizim ölkəmizi qorusun. Mən əhd etmişən və hər il ziyarətə gəlirəm. Fəxri xiyabanda yaşanan izdiham bir daha göstərir ki, Heydər Əliyev mənən xalqı ilə birlikdədir, onun parlaq ideyaları yalnız bu günümüzə deyil, gələcəyə aparan yollarımıza da işıq saçır.

***Ceyhun Rasimoğlu***

# Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin xatirəsi yad edilib




***Dekabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə tər gül dəstəsi qoyub, xalqımızın böyük oğlunun xatirəsinə ehtiramını bildirib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların kollektivləri, ali və orta ixtisas məktəblərinin müəllim və tələbələri, hərbi hissələrin və ictimaiyyətin nümayəndələri, minlərlə insan Ulu Öndərin abidəsi önünə gələrək əziz xatirəsini yad ediblər.





Ümummilli liderimiz Heydər Əliyevin zəngin siyasi irsi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanın dünəni, bugünü və gələcəyidir. 1969-cu il iyulun 14-də Ulu Öndərimizin ölkəmizə rəhbər seçilməsi Azərbaycanın müstəqillik tarixinin və uğurlu inkişafının əsasını qoydu. 1969-1982-ci illərdə Ümummilli Liderimizin rəhbərliyi ilə Azərbaycanda böyük iqtisadi tədbirlər reallaşdırılıb, istehsal müəssisələri, zavodlar, fabriklər tikilib, təhsil, səhiyyə, mədəniyyət ocaqları fəaliyyətə başlayıb, xalqımızın tarixi yaddaşı bərpa edilib. İkinci dəfə qazandığımız dövlət müstəqilliyinin əsasında da Ulu Öndərin ötən əsrin 70-80-ci illərdə yaratdığı möhkəm təməl, güclü intellektual və iqtisadi potensial, milli ruh dayanırdı.

Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası müstəqil Azərbaycanın uğurlu inkişafının təməlində dayanan əsas amildir. Vətənin ağır bəlalardan xilasını özünün tarixi missiyası kimi qəbul edən Ümummilli Liderimizin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyasına həsr edilib. Bu missiyanın öz başlanğıcını götürdüyü məkan isə Azərbaycanın Naxçıvan Muxtar Respublikasıdır. Ulu Öndər Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə Azərbaycan xalqının azadlıq və müstəqilliyi üçün çalışıb, müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində tarixi addımlar atıb. Dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "sovet, sosialist" sözləri çıxarılıb, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilib, qədim Naxçıvan torpağı erməni təcavüzündən qorunub. Dahi rəhbərin o çətin dövrdə Naxçıvanda həyata keçirdiyi tədbirlər müstəqil dövlətçiliyimizin bünövrəsini qoyub.

Xalqın ulu öndər Heydər Əliyevə olan böyük inamı və təkidli tələbi ilə 1993-cü il iyunun 15-də dahi rəhbər ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdı. Bu qayıdış Milli Qurtuluş Günü kimi tarixə düşdü. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi ölkəmizdəki böhrana son qoydu, xalqımız azərbaycançılıq ideyaları ətrafında birləşdi. Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Müstəqil, demokratik, hüquqi və dünyəvi dövlətçilik yoluna qədəm qoyan Azərbaycanın qarşısında duran problemlər həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın həmrəyliyi, milli birliyi təmin edildi, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlandı.

Ulu öndər Heydər Əliyevin ömür yoluna nəzər salsaq aydın olar ki, bu ömür yalnız bir məqsədə xidmət edib: o da müstəqil və qüdrətli Azərbaycandır. Ona görə də Ümummilli Liderimizin ölkəmizə rəhbərlik etdiyi illər tariximizə milli intibah, milli tərəqqi, milli oyanış və müstəqil dövlət quruculuğu dövrü kimi daxil olub. Bu gün xalqımız əmindir ki, Ümummilli Liderimizin siyasi kursu möhkəm əllərdədir. Bu kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev nəinki regionda, bütövlükdə dünyada qəbul edilmiş siyasətçi kimi Azərbaycanı inamla daha xoşbəxt gələcəyə aparır. Dövlət başçısının da dediyi kimi: "Azərbaycan Heydər Əliyev siyasətini zənginləşdirir, müasir dövrün çağırışlarını nəzərə alaraq bu dövrə uyğunlaşdırır, ancaq ümumi siyasi xətdən kənara çıxmır. Bizim siyasi xəttimiz müstəqilliyin möhkəmlənməsidir... Biz daha da güclü olmalıyıq və bu yolla gedirik. Bu yol Heydər Əliyev yoludur. Biz onun siyasətinə sadiqik".

Bu gün Naxçıvan Muxtar Respublikası da əsl inkişaf və tərəqqi dövrünü yaşayır. Bu tərəqqiyə Ümummilli Liderimizin müəllifi olduğu inkişaf strategiyasının uğurla davam etdirilməsi və Heydər Əliyev siyasi xəttinə sədaqət nəticəsində nail olunub. Son illər muxtar respublikada quruculuq işləri geniş vüsət alıb, dinamik iqtisadi inkişaf əldə olunub, infrastruktur yenilənib, sosial proqramlar qəbul edilərək icra olunub, enerji və ərzaq təhlükəsizliyi təmin edilib, etibarlı müdafiə sistemi yaradılıb.

İnkişaf, milli birlik və həmrəylik, güclü dövlət və müstəqillik Ümummilli Liderimizin siyasi fəaliyyətinin əsas qayəsini təşkil edirdi. Zaman keçdikcə, illər ötdükcə Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü daha dərindən dərk edirik. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: "Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır. Bu gün heç kimin şübhə etmədiyi reallıq bundan ibarətdir ki, dahi Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək simasını və inkişaf perspektivlərini müəyyənləşdirir".

Müdriklər deyir ki, "Vətənə və xalqa həsr olunmuş ömür bitmir". Ümummilli Liderimiz də deyirdi ki: "Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Heydər Əliyev Muzeyinə gələrək ümummilli lider Heydər Əliyevin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıb. Həmin gün muxtar respublikanın bütün rayon mərkəzlərində də Ümummilli Liderimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

# Uğurlu gənclər siyasətinin parlaq gələcəyi

***Gənc müəllim, həkim, mühəndis, polis, dövlət qulluqçusu, əsgər... Hər şey gənclikdən başlayır. Gənclik elə bir qüvvədir ki, bir dövrü belə dəyişmək gücünə malikdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi vəziyyət getdikcə dəyişməyə başladı. Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən gənc nəslin vahid bir mərkəzdən idarə olunması üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyi yaradıldı. Yalnız bundan sonra bu sahənin inkişaf prosesi sürətləndi, gənclərlə iş sahəsində yeni strukturlar formalaşmağa başladı.***



Gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq aləmdə iştirakı təmin edildi, gənclər təşkilatları ilə iş gücləndirildi, bir sıra dövlət proqramları qəbul edildi. Gənclər siyasətinin davamı olaraq Ulu Öndər tərəfindən imzalanan Sərəncama əsasən, 2 fevral Azərbaycanda Gənclərin ilk Forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsində əsas məqsəd dövlət-gənclər siyasətinin uğurla icra olunması, gənclərə dövlət qayğısının artırılması, ölkə gənclərinin hər bir sahədə fəal iştirakını təmin etmələrinə şərait yaratmaq idi. 1997-ci ili fevralın 1-də Gənclərin I Forumunun ildönümü münasibətilə bir qrup gənci qəbul edən Ümummilli Lider Heydər Əliyev 2 fevralın Azərbaycanda Gənclər Günü kimi qəbul edilməsi barədə Sərəncam imzaladı. Forumda iştirak edən Ulu Öndər öz çıxışında gənclərə bu cür müraciət etdi: "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz, müstəqil Azərbaycanı XXI əsrdə yaradanlarsınız, quranlarısınız, inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq".

Bu sözlər, Azərbaycan gənclərinin qarşısında mühüm vəzifələr qoydu. Heç kəsə sirr deyil ki, gənclik bir millətin gələcəyinin yaşaması üçün təməl daşıdır. Bir millətin mövcudluğu üçün onun sağlam gəncliyinin olması vacibdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı, intellektual səviyyəli gənc nəslin yetişdirilməsindən və onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır.

Beləliklə, Azərbaycanda aparılan uğurlu dövlət - gənclər siyasəti Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün bu siyasət ölkə başçısı tərəfindən məqsədyönlü şəkildə davam etdirilir. Prezident İlham Əliyev tərəfindən qəbul edilmiş dövlət proqramları bu sahənin nə qədər vacib və aktual olduğunu göstərir.

Tarixən hər bir xalq öz xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəslə bağlayır. Dünya ölkələrində gənclər sosial-iqtisadi inkişafın, cəmiyyətin islahatlarını hərəkətə gətirən əsas qüvvəsi hesab olunur. Bu gün Naxçıvan Muxtar Respublikasında gənclər siyasəti Ali Məclisin cədri tərəfindən yeni mərhələni yaşayır. Muxtar respublika rəhbərinin fərmanı ilə potensiallı gənc istedadların dövlət qayğısı ilə hərtərəfli əhatə olunması bunun əyani nümunəsidir.

Muxtar respublikamızda aparılan iqtisadi inkişafın nəticəsidir ki, Naxçıvan bu gün regionun aparıcı simasına çevrilib. Aparılan hərtərəfli islahatlar və iqtisadi inkişaf bütün sahələrdə özünü göstərir. Bütün dövrlərdə olduğu kimi, gənclərlə iş sahəsi hər il yeni müstəvidə həm də sürətlə inkişaf etdirilir. Qəbul edilən qərar və sərəncamlar gənclərimiz tərəfindən alqışlarla qarşılanır. Bunun qarşılığında gənclərimiz muxtar respublikanın tanıdılmasında, mədəni-kütləvi tədbirlərin keçirilməsində, ictimai-siyasi həyatında yaxından və fəal şəkildə iştirak edirlər. Nəticədə, 2018-ci il gənclərimiz üçün uğurlu il olaraq, yaddaşlara həkk olundu. Naxçıvan beynəlxalq tədbirlərin, forumların və idman yarışlarının keçirildiyi bir məkana çevrildi.

Muxtar respublika gəncləri respublikanın ictimai-siyasi həyatında yüksək fəallıq göstərərək, 2018-ci ildə Naxçıvana ölkənin "Gənclər Paytaxtı" statusunu qazandırdılar. Cari ilə "İslam Mədəniyyəti Paytaxtı" kimi qədəm qoyan doğma diyarımızda gənclər nümayiş etdirdi ki, onların internet resurslarından səmərəli istifadəsi muxtar respublikada gənclər üçün yaradılan şəraitin bir nümunəsidir.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin təşəbbüsü ilə Azərbaycan gənc oftalmoloqlarının elmi-praktik konfransının muxtar respublikamızda keçirilməsi ölkəmizin Gənclər Paytaxtı seçilmiş Naxçıvanda elmə, təhsilə, səhiyyəyə nə qədər önəm verdiyinin göstəricisidir. Gənclərimiz tərəfindən azərbaycançılıq məfkurəsinin düzgün dərk edilməsi Naxçıvanın strateji inkişaf hədəflərinə xidmət edən vacib amildir. Çünki muxtar respublikamızın inkişaf strategiyasının əsasında milli-ideoloji prinsiplər durur. Bu prinsiplər uzun illərdən dövrümüzədək qorunub-saxlanılan milli irsimiz, tarixi ənənələrimizlə yanaşı, müasir dövrün çağırışlarına uyğun yeni hədəflərin və fikirlərin vəhdətində formalaşıb.

Qoca yüzilliyin gənc ölkəsinin gəncləri öz mədəni irsinə, kökünə və keçmişinə bağlı böyüyürlər. İsbat olunmuş teorem kimi: hər bir cəmiyyətin gəncləri öz mədəniyyəti ruhunda tərbiyə olunurlar. Məsələn, Qədim Spartada gənclər nizam-intizamlığı və qəhrəmanlığı ilə seçilir, cəsarətlilik ruhunda tərbiyə olunurdular.

Tarixən imperiyaların və sivilizasiyaların qovuşduğu məkanda yaşayan Azərbaycan xalqının həyat qaydası olan mübarizlik ruhu onun xarakterinə və düşüncəsinə hopub. Mübariz Azərbaycan gənci hər zaman ata-babalardan miras qalan öz milli adət-ənənəsini, tarixini və irsini qoruyaraq, gələcək nəsillərə ötürüb. Cari ildə muxtar respublika gənclərinin əldə etdiyi uğurlar onu göstərir ki, Naxçıvan gəncliyi gündən-günə respublikamızın hər bir sahəsində uğur qazanmaqdadır. Məhz 2018-ci ildə idman sahəsində 311, gənclər sahəsində isə 292 tədbirin təşkil olunması, eyni zamanda 189 medalın qazanılması təsadüfi deyil.

Muxtar respublikamızda "Avropa günləri" çərçivəsində tam orta məktəblərdə, ali təhsil ocaqlarında bir sıra tədqimatların keçirilməsi Naxçıvanın mədəni həyatında xoş xatirə kimi iz buraxdı. Həmçinin, gənclərimiz Avropa İttifaqını təşkil edən ayrı-ayrı dövlətlərin mədəniyyəti və tarixi haqqında yeni məlumatlar qazandılar. Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk Forumunun keçirilməsi isə tarixi hadisə kimi yaddaşlara həkk olundu. Bu, onu göstərdi ki, qədim mədəniyyətə malik olan Naxçıvan bu gün bütün sahələrdə inkişaf edir, həmçinin diyarımız türk dünyasının elm, mədəniyyət və maarifçilik mərkəzinə çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov forumda demişdir: "Elm, təhsil və mədəni inkişaf tarixən türk xalqlarını birləşdirib. "Kitabi-Dədə Qorqud" və "Manas" dastanları, Orxon-Yenisey, Qobustan və Gəmiqaya yazılı abidələri türk xalqlarının milli varlığının, təfəkkürünün və birliyinin ifadəsidir. Mövlana Cəlaləddin Rumi, Xoca Əhməd Yasəvi, Baba Nemətullah Naxçıvani kimi görkəmli mütəfəkkirlər ümumtürk mədəniyyətinin möhkəmlənməsinə öz töhfələrini vermişlər. Bu mədəniyyətdə payı olan Naxçıvan coğrafi cəhətdən də türk toplumlarının mərkəzində yerləşir. 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının Doqquzuncu Zirvə Görüşünün, bu gün isə Türk Şurası Gənc Liderlərinin ilk Forumunun Naxçıvanda keçirilməsi, mərkəz kimi Naxçıvanın əhəmiyyətini daha da artırır". Ali Məclisin cədri bütün bunları nəzərə alaraq Naxçıvanda Türk Universitetinin yaradılması təşəbbüsünü irəli sürüb. Bu isə, gələcəkdə Naxçıvanı həm də türk dünyasının tələbə-gənclərini bir araya gətirəcək mərkəzə çevirəcək.

Göstərilən etimad qarşısında əldə edilən uğurlar nəticəsində aktiv və avanqard qüvvə kimi gənclərin muxtar respublikanın həyatında öncül yer tutmaları, yüksək hədəflərə çatmaq üçün yaradılan şəraitdən istifadə bizlər üçün zəngin bazadır. Bu, əbədi gəncliyin hər zaman arzularla, ideyalarla, yeni fikirlərlə yaşamasına, parlaq uğurlar qazanacaqlarına əminlik yaradır. Məşhur romanda yazıldığı kimi: "Ey gənclik! Sənin taleyində hansı ulduz parlayır?!"

***Azad Cabbarov,***
***Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri,***
***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri***

# Daşkəsəndə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib



Dünən xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü Daşkəsən rayonunda da qeyd edilib. Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, Yeni Azərbaycan Partiyası rayon təşkilatının şura və idarə heyəti üzvləri, ağsaqqallar və ziyalılar, veteranlar, gənclər, rayonun əmək kollektivlərinin üzvləri, ictimaiyyət nümayəndələri və rayon sakinləri səhər saatlarından rayon mərkəzində ucaldılan Ulu Öndər Heydər Əliyevin xatirəsinə ucaldılan abidəsi önünə gül dəstələri düzüb, dahi rəhbərə sonsuz hörmət və ehtiramlarını bir daha da nümayiş etdiriblər.



Sonra rayonun Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotostendlərə baxış keçiriblər. Rayon icra hakimiyyətinin inzibati binasında davam edən tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Ümummilli Liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən "Zaman və Lider" filmi nümayiş etdirildikdən sonra Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev çıxış edərək bildirib ki, müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyev cismən bizdən 15 ildir ayrılsa da, ruhən həmişə Azərbaycan xalqının qəlbində daima yaşayır və yaşayacaq. Ə.Abıyev, həmçinin bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi Heydər Əliyevin şərəfli və mənalı həyat yolundan, əsrlər boyu xalqımıza xidmət edəcək zəngin siyasi irsindən və ən yeni tariximizdəki xilaskarlıq missiyasından danışıb. O bildirib ki, nadir tarixi şəxsiyyət olan Heydər Əliyev bütün həyatını xalqımıza həsr edərək ona güclü, sarsılmaz, qüdrətli bir dövlət miras qoyub. Qədirbilən xalqımız beynəlxalq səviyyədə də sevilən, hörmət bəslənilən Ümummilli Lider Heydər Əliyevin xalq və ölkə qarşısındakı əvəzsiz xidmətləri, özünün nəsillərə nümunə ola biləcək fəaliyyəti ilə daim qürur duyur və bu gün dahi rəhbərin siyasi kursunu yeni müstəvidə uğurla davam etdirən Prezident İlham Əliyevə ürəkdən inanır və Onun Ulu Öndərimizin siyasi varisi kimi yürütdüyü siyasi, iqtisadi və sosial islahatları yekdilliklə dəstəkləyir. Bütün bunlar, bir daha sübut edir ki, dövlət başçımızın rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və xalqımızı davamlı inkişafa və tərəqqiyə aparır: "Ulu Öndər xalqımızın gələcək inkişaf yolunun möhkəm təməlini qoyaraq, Azərbaycanın 10 illər sonra da inkişaf istiqamətini proqnozlaşdırmaqla, dövlətimizin qlobal inkişaf yolunu müəyyənləşdirib. Bu gün qürurla deyə bilərik ki, Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyinin dayanıqlılığı tam təmin edilib, dünya ictimaiyyəti beynəlxalq arenada Azərbaycanı və onun liderini tanıyır, Onu minnətdarlıqla xatırlayırsa, ünvanına ən xoş sözlər, yüksək rəyini, fikrini söyləyirsə, Azərbaycanın apardığı xarici siyasətlə hesablaşırsa, bu, özü də Heydər Əliyevin xalqımız üçün göstərdiyi tarixi xidmətlərinin parlaq nəticəsidir. Müstəqil Azərbaycanın inkişafının hər bir zərrəsində Əbədiyaşar Liderin ideyaları yaşayır və əbədiləşir".

Rayon rəhbəri, həmçinin Ulu Öndərin azərbaycançılıq ideyasını əsas götürdüyünü də vurğulayıb: "Ümummilli Lider bütün dünyada yaşayan soydaşlarımıza bu ideya ətrafında birləşməyi təlqin edir və bildirirdi ki, azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub-saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafını təmin etməkdən ibarətdir. Məhz Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın milli bayramları sırasına bir möhtəşəm tarix də əlavə olundu: 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü. Müstəqil Azərbaycan dövlətçiliyi üçün əlamətdar olan bu günün müəllifi də xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində deyirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər."

Azərbaycan dövlətçiliyinin gələcək inkişaf yolu və siyasi xəttini hər zaman düşünən Ulu Öndər Heydər Əliyevin İlham Əliyev haqqında Azərbaycan xalqına tarixi müraciətində dediyi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Müdrik sözlər bu 15 il ərzində özünün tam təsdiqini tapdı. Prezident İlham Əliyev xalqın Ona bəslədiyi ümidləri və etimadı tam mənası ilə doğrultdu, O, seçki öncəsi xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirərək, ümumxalq məhəbbətini qazandı. Azərbaycan məhz İlham Əliyevin dövründə, sözün əsl mənasında, dünyaya günəş kimi parladı. Xalqımız Möhtəhəm Prezidentimiz İlham Əliyevin və çox hörmətli Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həyata keçirdikləri siyasəti daim dəstəkləyir, sabaha inamla addımlayır".

**R.KAMALQIZI**



# BSU-da Ümummilli Lider Heydər Əliyevin anım mərasimi keçirilib



***Dünən Bakı Slavyan Universitetində Ulu Öndər Heydər Əliyevin vəfatının 15-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Mərasim iştirakçıları Ümummilli Liderin BSU-nun foyesində yerləşən büstünün önünə əklil və gül dəstələri düzüblər. Tədbir rəsmi hissə ilə davam edib. Rəsmi hissənin əvvəlində Dövlət himni səsləndirilib, Ulu Öndərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.***

Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən danışıb. O bildirib ki, Ulu Öndər Heydər Əliyev ölkə həyatının bütün sahələrinə, o cümlədən, elmin və təhsilin inkişafına böyük diqqət yetirirdi. N.Əliyeva Ümummilli Liderin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, xalqın məhəbbətini qazanan Öndər kimi qaldığını diqqətə çatdırıb. O deyib: "Ulu Öndər hər zaman bütün dünyada böyük hörmətlə qarşılanıb. Hər bir azərbaycanlı bunu yüksək qiymətləndirməli, Onun qoyduğu yolla getmək üçün əlindən gələni etməlidir. O, Azərbaycanla fəxr edirdi. Xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət qurucuğunda Onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyil. Bu mənada, o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan Milli Liderimiz, güvənc yerimizdir. Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun Heydər Əliyev kimi dahi şəxsiyyəti olub".

Bu gün Ulu Öndərin məqsədyönlü siyasətini Prezident İlham Əliyev layiqincə davam etdirdiyini, müstəqil Azərbaycanın daha da güclənməsi istiqamətində mühüm işlər gördüyünü deyən N.Əliyeva dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində, Azərbaycanın bütün sahələrdə mühüm nailiyyətlər qazandığını diqqətə çatdırıb. N.Əliyeva Ulu Öndər Heydər Əliyevin xarici siyasətinin uğurla davam etdirilməsində ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mühüm rolu olduğunu, onun Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin, azərbaycanlılara qarşı edilən genosidin dünyaya yayılmasında və təbliğində böyük işlər gördüyünü diqqətə çatdırıb.

Tədbirdə YAP Gənclər Birliyinin BSU üzrə sədri Şirin Hüseynzadə "Heydər Əliyev və gənclər siyasəti" mövzusunda çıxış edib. Ş.Hüseynzadə çıxışında bu gün dövlətçiliyin inkişafında gənclərə xüsusi önəm verildiyini qeyd edib. O, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi gənclər siyasətinin həm ölkənin ictimai həyatında, humanitar, idman və digər sahələrdə Azərbaycan Respublikası Prezidenti tərəfindən uğurla həyata keçirildiyini bildirib.

Sonra BSU-nun I kurs tələbəsi Sevinc Süleymanova "Ulu Öndər" şeirini səsləndirib. BSU-nun II kurs tələbəsi Mirpaşa İlyasov "Xalqın lideri", I kurs tələbəsi Ayxan Əzizov "Dünya liderləri Heydər Əliyev haqqında" adlı məruzələrlə çıxış ediblər.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin həyat yoluna həsr olunmuş "Lider" filminin nümayişi olub.

Mərasimin ardından BSU-nun professor-müəllim heyəti və tələbələrindən ibarət kontingent Fəxri Xiyabana gedərək, Ulu Öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri düzüblər.

**Rövşən NURƏDDİNOĞLU**



# AMEA-nın Fəlsəfə İnstitutunda Heydər Əliyevin anım mərasimi keçirilib

Dünən AMEA-nın Fəlsəfə İnstitutunda Ulu Öndər Heydər Əliyevin anım mərasimi keçirilib. SİA-nın verdiyi məlumata görə, Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra institutun direktoru f.e.d. professor İlham Məmmədzadə anım mərasimini giriş sözü ilə açaraq Ulu Öndərin zəngin dövlətçilik irsinin həyata keçirilməsi istiqamətindəki ardıcıl işlərdən danışıb.

Ötən 15 il ərzində bu vəzifələrin layiqincə yerinə yetirilməsində əsas istiqamət kimi sabitliyin nəinki qorunub-saxlanılmasını, həm də onun davamlı olması istiqamətində Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin mühüm məqamlarını önə çəkib. Dünyada hazırkı geosiyasi vəziyyətə dair təhlillər apararaq Azərbaycanın belə şəraitdə inkişaf dinamikasının yüksələn xəttlə inkişafının ölkəmiz və region ücün xüsusi önəm daşıdığına diqqət cəkib. Ulu Öndərin insan haqlarının müdafiəsi ilə bağlı apadığı siyasətin dünyada sülhün və sabitliyin qorunmasına mühüm cağırışlar olduğunu bu gün də bu çağırışların Azərbaycan tərəfindən həyata keçirilməsinin başəriyyət üçün əhəmiyyətini şərh edib. Əldə olunmuş nəticələr mərasim iştirakçılarının diqqətinə çatdırılıb.

İnstitutun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Eynulla Mədətli Ulu Öndərin irsinin öyrənilməsi istiqamətdə zəngin biliklərin ortaya qoyulması, onun zaman-zaman cəmiyyətimiz tərəfindən dərk edilməsi zərurətinin güclü dövlətçiliyimiz naminə vacibliyini əsaslandırdı. Ulu Öndərin iş təcrübəsindəki güclü vətənpərvərlik ruhundan, ədalətli mövqeyindən danışıb.

Sonra İnstitutun şöbə müdiri f.ü.e.d. Füzuli Qurbanov Ulu Öndərin milli dəyərlərimizə verdiyi qiymətin, dövlətçiliyimizin inkişafında yaratdığı sabitliyin, güclü iqtisadiyyatın və geosiyasi tarazlığın müsbət nəticələrinə toxunub. O, əsaslandırıb ki, zaman keçdikcə cərəyan edən hadisələr dahi siyasi xadimin haqlı olduğunu göstərdi.

İnstitutun şöbə müdirləri Afaq Rüstəmova və Rəna Mirzəzadə XX əsrin 90-cı illərində ölkədə yaranmış hərci-mərciliyin xalqımız və dövlətciliyimiz ücün ağır nəticələrindən söz açıblar. Belə cətin şəraitdə görkəmli strateqin qısa vaxtda ölkədəki ictimai-siyasi sabitliyə nail olması, xalqla siyasi liderin həmrəyliyinin yaradılması kimi tarixi missiyanın həyata keçirməsinə dair təhlillər aparıblar. Məhz belə müdrik siyasətin nəticəsində qüdrətli dövlətçilik, inkişaf və tərəqqinin inkaredilməz olduğu bildirilib. Fəlsəfə elmləri doktoru, İnstitutun şöbə müdirləri, professor Azər Mustafayev, fəlsəfə elmləri doktoru, professor Rəfiqə Əzimova, fəlsəfə elmləri doktoru Adil Əsədov Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində ölkəmizin müasir dünyadakı mövqeyinin gündən günə artmasını elmi faktlarla diqqətə çatdırıblar.

YAP Fəlsəfə İnstitutunun sədri s.e.ü.f.d Sənan Həsənov cıxış edərək Ulu Öndər Heydər Əliyevin ideyalarını mütərəqqi və mükəmməl ideologiya ətrafında birləşdirən Yeni Azərbaycan Partiyasının İnstitutda fəaliyyətə başlaması ilə institut ziyalılarının bu ideya ətrafındakı çoxtərəfli elmi-ictimai fəaliyyətinə toxunub. Bu ideyaların Azərbaycanın inkişaf strategiyasındakı alternativinin olmadığını nəzərə çatdırıb. Mərasimə İnstitutun direktoru f.e.d. prof. İlham Məmmədzadə yekun vurub. Qarşıda duran vəzifələrə dair tövsiyələrini iştirakçıların diqqətinə çatdırıb.

## Beş əcnəbinin saxta sənədlərlə dövlət sərhədindən keçməsinin qarşısı alınıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) sərhəd təhlükəsizliyinin təmin olunması istiqamətində tədbirlər davam etdirilir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Xidmət əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində son günlər dövlət sərhədindən buraxılış məntəqələrində beş nəfərin saxta sənədlərlə dövlət sərhədindən keçməsinin qarşısı alınıb.

Belə ki, dekabrın 2-də Moskva-Bakı aviareysi ilə ölkəmizə gələn Pakistan vətəndaşı 1989-cu il təvəllüdlü Anvar Cohninin Böyük Britaniyaya məxsus pasportunun qismən saxta olması müəyyənləşib. Dekabrın 4-də Bakı-İstanbul aviareysi ilə gedən Pakistan vətəndaşı 1984-cü il təvəllüdlü İmran Saqibin İsveçə məxsus ID kartının tam saxta olması müəyyən edilib. Bir gün sonra Moskva-Bakı aviareysi ilə gələn Özbəkistan vətəndaşı 1993-cü il təvəllüdlü Zubaydiva Ziyodanın pasportunda tarix-möhürlərin saxta olması aşkarlanıb. Dekabrın 6-da isə Erbil-Bakı aviareysi ilə gələn Böyük Britaniya vətəndaşı 1984-cü il təvəllüdlü Svar Solav Moohammed Aminin pasportunun saxta olması müəyyən edilib. Araşdırma zamanı həmin şəxsin üzərindən İraq vətəndaşı 1982-ci il təvəllüdlü Qahriya Sulaiman Husseinin adına pasport aşkar edilib. Dekabrın 7-də Dubay-Bakı reysi ilə ölkəmizə gələn Hindistan vətəndaşı 1992-ci il təvəllüdlü Çaudhari Ravindrakumar Coitabhainin elektron vizasının saxta olması aşkarlanıb. Saxlanılan şəxslər barəsində müvafiq tədbirlər görülüb.

# "Müstəqilliyimizin qurucusu - Heydər Əliyev"

*Bölgələrdə Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı tədbirlər keçirilib*



### GƏNCƏ

Ümummilli Lider, dahi siyasətçi Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə bağlı, respublikamızın bütün rayon və şəhərlərində olduğu kimi, Gəncə şəhərində də anım mərasimi keçirilib, Ulu Öndərin əziz xatirəsi ehtiramla yad edilib.

Şəhər ziyalıları və sadə vətəndaşlar Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini dərin ehtiramla anıblar. İzdihamlı abidə önündə Ulu Öndərin Azərbaycan xalqına göstərdiyi müstəsna xidmətlərindən bəhs edilib. Qeyd edilib ki, Azərbaycanı dünyada, məhz Ulu Öndər Heydər Əliyev tanıdıb. Məhz Ümummilli Liderimizin yorulmaz əməyi nəticəsində ölkəmiz çətin və keşməkeşli vəziyyətdən çıxıb. Gəncə şəhəri isə daim Ulu Öndər Heydər Əliyevin xüsusi diqqət mərkəzində olub.

### YEVLAX



Yevlax rayonunda da görkəmli dövlət xadimi Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında müstəsna xidmətləri daim yüksək dəyərləndirilir və Onun əziz xatirəsi böyük ehtiramla yad olunur. Dekabrın 12-də səhər saatlarından etibarən ziyalılar, ağsaqqallar, qadınlar, gənclər və şəhərimizin qonaqları axın-axın, əllərində gül-çiçək dəstələri ilə Ulu Öndərin xatirəsini yad etmək üçün rayonun mərkəzi meydanına toplaşıblar. Yevlax rayon icra hakimiyyətinin başçısı Qoca Səmədov, hüquq-mühafizə orqanlarının rəhbərləri, rəsmi şəxslər Ulu Öndər Heydər Əliyevin əzəmətli abidəsi önünə gül dəstələri düzüb, qarşısında ehtiramla baş əyərək, ürəklərində sevgi və rəğbət duyğuları ilə dahi şəxsiyyətin əziz xatirəsini yad ediblər.

Yevlax rayon İH-in başçısı Qoca Səmədov bildirib ki, həyatının mənasını xalqa və dövlətə xidmətdə görən Ümummilli Lider bu müqəddəs amal uğrunda ən çətin sınaqlara mərdliklə sinə gərən millət fədaisi kimi hər zaman böyük minnətdarlıqla xatırlanacaq. Doğma xalqı və Vətəni qarşısında misilsiz xidmətlərinə və müstəsna tarixi roluna görə, Ulu Öndəri dünya miqyaslı siyasi nəhənglərlə müqayisə edirlər. Hər bir azərbaycanlı qürur hissi keçirir ki, dahi Heydər Əliyevin bizə əmanət qoyub getdiyi dövlətimizin idarəçilik sükanı arxasında Ümummilli Liderin yetirməsi, yaratdığı güclü siyasi məktəbin davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyev dayanır.

### GORANBOY



Goranboy rayonunda da Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasının 15-ci ildönümü münasibəti ilə anım tədbiri keçirilib. YAP Goranboy rayon təşkilatının sədri Elçin İsmayılov anım mərasimində çıxış edərək, qeyd edib ki, Ulu Öndər Heydər Əliyev ən mürəkkəb və ziddiyyətli tarix proseslərin gedişindən bacarıqla baş çıxarıb. Ən çətin vəziyyətdə belə təhkimini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri reallıqla qiymətləndirib. Ulu Öndər Heydər Əliyev, mənsub olduğu xalqı, ölkənin çıxarlarını praqmatik ağılla, əsrarəngiz təcrübəsi ilə dəqiq hesablayan bir lider idi.

Anım tədbirində çıxış edən YAP Goranboy rayon təşkilatının aparat rəhbəri Əzra Həşimova da qeyd edib ki, Azərbaycanın müstəqillik yolu çox çətin sınaqlardan keçib. Bir sıra tarixi aspektlərə toxunan Ə.Həşimova bildirib ki, Dahi Öndər Heydər Əliyev elə bir lider idi ki, Azərbaycan bundan sonrakı bütün liderlər üçün örnək olacaq və xalq seçdiyi lideri onunla müqayisə edcək. "Heydər Əliyev siyasətini bundan sonrakı illər, on illiklərdə davam etməsi Azərbaycan dövlətinin tərəqqisi üçün ən böyük siyasətdir", deyə qeyd edən aparat rəhbəri, son olaraq bildirib ki, bu gün, həm də məlum olan odur ki, bu siyasəti uğurla davam etdirən Liderimiz - Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyev var və bu gün Onun rəhbərliyi ilə Ulu Öndər Heydər Əliyev siyasi kursu uğurla davam etdirilir, yaşayır və yaşadılır.

**Rövşən NURƏDDİNOĞLU**

# Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

***Bəşər övladı mövcud olduğu gündən onun təbii haqları da meydana gəlmişdir. Öz haqqı uğrunda mübarizəyə qalxıb nailiyyət əldə edən insanların yaşadığı cəmiyyət azad, suveren, demokratik adlanır. Bu mənada, Azərbaycan insanı da hər zaman özünün təbii haqları uğrunda mübarizə aparmışdır. Azərbaycan Sovet buxovundan xilas olduqdan sonra bizlər azadlığın necə şirin nemət olduğunu anladıq. "İnsan hüquqları hüquqi dövlətin təməl prinsipidir" fəlsəfəsini fəaliyyətimizin piroritetinə çevrildi. Hüquqi dövlətin tərkib hissəsi olan "vətəndaş cəmiyyəti" ideyası ən çox işlətdiyimiz və gündəlik yaşam tərzimizə çevirdiyimiz fəaliyyət prinsipimizə vəsilə oldu.***

Azərbaycan Respublikası müstəqilliyə qovuşduqdan sonra demokratik-hüquqi dövlət quruculuğunu özünün inkişaf yolu seçdi. Lakin bu dövlət quruculuğu prosesi heç də sadə olmamışdır. Müstəqilliyinin ilk illərində Azərbaycan öz tarixinin ən mürəkkəb dövrlərindən birini yaşamışdır. 1991-1993-cü illərdə Azərbaycanda hökm sürən xaos, özbaşınalıq, siyasi savatsızlıq və naşı idarəçilik, vətəndaş müharibəsi təhlükəsi, mövcud vəziyyəti daha da ağırlaşdıran aqressiv separatizm və ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən işğal olunması qarşıda duran həyati əhəmiyyətli bu vəzifələrin yerinə yetirilməsinə imkan vermirdi. Müstəqilliyinin ilk kövrək addımlarını atan Azərbaycanda dövlət quruculuğu prosesinə başlanması ölkədə, ilk növbədə, sabitliyin bərqərar olmasını zəruri edirdi. Məhz belə ağır şəraitdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev qısa müddət ərzində Azərbaycanda sabitliyi təmin etməyə nail olur və ölkəmiz qarşısında duran taleyüklü dövlət quruculuğu məsələlərini həyata keçirməyə başlayır. İctimai-siyasi sabitliyə nail olunması vətəndaşların hüquq və mənafelərinin müdafiəsinə, bazar münasibətlərinə əsaslanan liberal iqtisadiyyatın və sahibkarlığın inkişafına, beynəlxalq münasibətlər sisteminə inteqrasiyaya istiqamətlənən, sosial ədalət prinsipinə əsaslanan demokratik-hüquqi dövlət quruculuğuna imkan yaradır.

Məhz Ulu Öndər vətəndaş cəmiyyəti quruculuğu nüanslarına sadiq qalaraq Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlətin baza prinsiplərini ardıcıllıqla tətbiq etməyə nail oldu. Danılmaz faktdır ki, vətəndaş cəmiyyətinin təməlinin möhkəmlənməsində müstəqil Azərbaycanın Konstitusiyasının qəbulu müstəsna rol oynadı. 1995-ci il Konstitusiyası insan hüquq və azadlıqlarının təminatı, demokratik vətəndaş cəmiyyəti quruculuğunu dövlətin ali məqsədi kimi müəyyən etdi. Əsas Qanunun qəbul edilməsilə ölkəmiz hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda yeni bir mərhələyə qədəm qoydu. Bu səbəbdən də, Azərbaycanın müasir, demokratik-hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdışı haqlı olaraq Ulu Öndərin adı ilə bağlanılır.

1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş konstitusiyamız dünyada nadir qanun toplusundan biridir. Burada demokratik-hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunub. İnsan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilib. Konstitusiyamızın üçdə bir hissəsi məhz bu məsələyə həsr edilib. Demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığı, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Əsas Qanunun rolu qat-qat artır.



Əminliklə demək olar ki, Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər fundamental hüquq və azadlıqları lazımi şəkildə öz əksini tapıb.

Azərbaycanda hüquqi dövlət quruculuğunun təxmini üç mərhələsini fərqləndirmək olar. Birinci dövr dövlət müstəqilliyini əldə etdikdən sonra yeni Konstitusiyanın qəbuluna qədərki zamanı əhatə edir. Bu dövrdə bir sıra yeni siyasi-hüquqi dəyərlər, prinsiplər, institutlar və mexanizmlər dövlət-hüquq sisteminə daxil oldu. Siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, azad mətbuatın hüquqi əsasları yaradıldı və fəaliyyətə başladı. İkinci mərhələ, yeni Konstitusiyanın qəbulundan sonra Azərbaycanın Avropa Şurasına daxil olmasına qədərki dövrdür. Bu dövrdə konstitusiya nəzarəti orqanı, azad mətbuatın qanunvericilik bazası formalaşdırıldı. Azərbaycan insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq konvensiyalara qoşuldu. Milli qanunvericilik təkmilləşdirildi, yerli özünüidarənin hüquqi əsasları yaradıldı və ilk bələdiyyə seçkiləri keçirildi. Üçüncü dövr isə Azərbaycanın Avropa Şurasına daxil olmasından başlanır və indiyə kimi davam edir.

Konstitusiyanın qəbulundan sonra ölkədə aparılan məhkəmə-hüquq islahatı nəticəsində bütün hüquq təchizatlarının fəaliyyətini tənzimləyən yeni mütərəqqi qanunlar qəbul edilib. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatların və milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması prosesi dövlətin prioriteti kimi qəbul edilib. Tarix göstərir ki, iqtisadi sahədə inkişaf etməmiş dövlətlərdə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna yönələn cəhdlər uğursuzluqla nəticələnir. Məhz bu reallıqdan çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev hər iki təmayülə vəhdət şəklində yanaşılmasını vacib sayır və ölkənin uzunmüddətli inkişafını məhz demokratik və iqtisadi islahatların paralel davam etdirilməsi şərtilə real hesab edir. Ölkə başçısının dəstəyi ilə yaradılan "ASAN xidmət" mərkəzləri dövlət orqanları tərəfindən xidmətlərin göstərilməsində vətəndaş məmnunluğunu, şəffaflığı təmin edir, korrupsiyanın qarşısını alır. Cənab Prezidentin də dediyi kimi, "vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin davam etməsi, hüquqi dövlətin qurulması, sadəcə olaraq bir şüar, yaxud da bir niyyət deyil, bu, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir".

Ümumiyyətlə, demokratiyanı siyasi sistem formalaşdırır. Onun dayanıqlı olması üçün isə vətəndaş mövqeyi, vətəndaş cəmiyyəti, eləcə də hüquqi dövlətin mövcudluğu zəruridir. Vətəndaş cəmiyyəti insan azadlığı və hüquqlarından xəbərsiz, özünü ifadə etməkdən çəkinən, məqsədlərinə çatmaq naminə neqativ yollara əl atmaqdan çəkinməyən vətəndaşlardan yarana bilməz. Əgər bir vətəndaş öz hüquq və azadlıqlarını bilmirsə, sosial məsuliyyətini dərk etmirsə, hüquqlarını tələb etməkdən vaz keçirsə, onda nə demokratiya, nə də vətəndaş cəmiyyətindən danışmağa dəyər.

Ekspertlərin fikrincə, hüquqi dövlətin formalaşması vətəndaş cəmiyyətinin inkişafı ilə bağlıdır.

Azərbaycanda müasir vətəndaş cəmiyyətinin əsas elementi anlamında isə qeyri-hökumət təşkilatları yeni mərhələyə qədəm qoymaqla vətəndaş cəmiyyətinin formalaşmasında öz sözünü deyə bilib. Artıq QHT-lər milli proqramların hazırlanması və həyata keçirilməsində yaxından iştirak edirlər ki, bu da ölkədə vətəndaş cəmiyyətinin formalaşmasına dəlalət edən amillərdəndir. Son zamanlar QHT-lərin vətəndaşların sosial, siyasi və mədəni hüquqlarının həyata keçirilməsində daha çox yardımçı olmağa cəhd göstərdiyini söyləsək düşünürəm ki, yanılmarıq. Hətta bir sıra QHT-lər qanunların aliliyinə, şəffaflığın təmin olunmasına ictimai nəzarətin həyata keçirilməsi sahəsində də peşəkar fəaliyyəti ilə də seçilirlər. Bəzi xarici dairələrdən maliyyələşən və göstəriş alan bir-iki qərəzli "vətəndaş cəmiyyətlərini" nəzərə almasaq, demək olar ki, bütün QHT-lər Azərbaycanda demokratik quruluşun dəstəklənməsi, dünyəvi dövlətin qurulması, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyinin təmin edilməsi istiqamətində kifayət qədər fəallıq nümayiş etdirirlər.

Etiraf edilməlidir ki, ölkədə vətəndaş cəmiyyətlərinin çoxşaxəli fəaliyyəti, xüsusən Azərbaycan həqiqətlərinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətindəki gördüyü işlər Azərbaycan dövləti tərəfindən də dəstəklənir. Bu məqsədlə 27 iyul 2007-ci ildə Prezident İlham Əliyev QHT-lərə dövlət dəstəyi konsepsiyasını təsdiq etdi və dekabrın 13-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradıldı. Bununla da QHT-lər yeni bir mərhələyə qədəm qoymuş oldu və vətəndaş cəmiyyətlərinin xarici donorlardan asılılığı aradan qalxdı. QHT-lərə dövlət dəstəyinin digər bariz nümunəsi Prezident İlham Əliyev tərəfindən QHT-lərin fəaliyyətinin daha da genişlənməsinə təminat verən çoxsaylı qanun layihələrinin parlamentə təqdim edilməsidir. Bütün bunlar ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı bir Azərbaycan modelinin formalaşdığının göstəricisidir.

Bu gün Azərbaycan cəmiyyəti indiyə qədər görünməmiş böyük sürətlə inkişaf edir. Belə şəraitdə insan faktoru, insan hüquq və azadlıqlarının müdafiəsi ən önəmli vəzifələrdən birinə çevrilir. Yalnız məhkəmə-hüquq islahatlarını ardıcıl və dönmədən həyata keçirməklə insan hüquq və azadlıqlarına təminat verən demokratik- hüquqi və vətəndaş cəmiyyəti qurmaq mümkündür.

Ölkəmizdə baş verən sürətli sosial-iqtisadi dəyişikliklər, dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, demokratik təsisatların möhkəmləndirilməsi ədliyyə sisteminin inkişafını və beynəlxalq standartlara uyğun qurulmasını da zəruri edir. Son illər ərzində hüquq sistemində aparılan islahatlar, qəbul edilmiş qanunvericilik aktları ədliyyə orqanlarının fəaliyyət istiqamətlərini genişləndirərək, onların qarşısında yeni vəzifələr qoyur və məsuliyyətini əhəmiyyətli dərəcədə artırır. Ədliyyə sahəsində dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi keyfiyyətcə yeni dəyişikliklərin həyata keçirilməsini, ədliyyə orqanlarının fəaliyyətinin şəffaflıq və aşkarlıq prinsipi əsasında qurulmasını, Ədliyyə Nazirliyinin işinin və strukturunun daha səmərəli şəkildə təşkil edilməsini, yeni regional və yerli qurumlarının yaradılmasını şərtləndirir. Vətəndaşların ədliyyə orqanlarına müraciət etmə imkanlarının genişləndirilməsi, hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının, notariat və müvafiq sahələrdə göstərilən hüquqi xidmətlərin müasir tələblər səviyyəsində qurulması, penitensiar müəssisələrin və məhkəmə icraçılarının işinin, qanunyaradıcı fəaliyyətin təkmilləşdirilməsi, məhkəmə ekspertizalarının keyfiyyətinin artırılması, hüquqi maarifləndirmənin və yeni texnologiyalar tətbiq edilməklə informasiya təminatının yaxşılaşdırılması, yüksək peşəkar mütəxəssislərin hazırlanması və digər istiqamətlər üzrə ədliyyə orqanlarının inkişafını təmin etmək məqsədilə ədliyyə sistemində müvafiq tədbirlər həyata keçirilir.

Ümummilli Lider Heydər Əliyevin başladığı dövlət quruculuğu prosesi məhz demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş, hazırda isə həmin proses Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirilən islahatlar hüquq sisteminin davamlı inkişafını təmin edir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin davam etməsi, hüquqi dövlətin qurulması, sadəcə olaraq bir şüar, yaxud da bir niyyət deyil, bu, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. Bu gün Azərbaycan Respublikasında mövcud olan hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşması Avropanın bir çox ölkələrindən daha güclü təşəkkül tapmışdır.

***Tünzalə İsmayılova***

*Məqalə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.*

# Əbədiyaşar Ulu Öndərimiz Heydər Əliyevin tolerantlıq fəlsəfəsi

***Ulu Öndər Heydər Əliyev 1994-cü il iyulun 13-də jurnalistlərlə görüşündə demişdir: "Müqəddəs islam abidələrini ziyarət edərkən, dinimizin elmi-fəlsəfi dərinliyini hiss edirsən və bu dini yaradanlara, əsrlər boyu belə abidələr yaradıb bugünkü nəsillərə çatdıranlara səcdə edirsən. Çox əzəmətlidir, hər bir müsəlmanda, o cümlədən, məndə də böyük iftixar hissi oyadır. Bu müqəddəs yerləri Məkkəni, Mədinəni, Kəbəni və Həzrəti Məhəmməd Peyğəmbərin məqbərəsini ziyarət edərkən indiki nəslin və peyğəmbərin qoyduğu yolla gedən şəxslərin fəaliyyətinə yüksək qiymət verirəm".***

O, mütəmadi olaraq, din xadimləri ilə görüşür, onları narahat edən məsələlərlə maraqlanırdı: "Mən orada indiyə qədərki həyatımda ən yüksək mənəvi hisslər keçirdim, qəlbim sevindi, ruhum şadlandı. Çünki mən anadan müsəlman kimi doğulmuşam, müsəlman kimi yaşamışam. Nəhayət, müsəlman üçün müqəddəs olan bu yerləri ziyarət etmək mənim ən böyük arzum idi. Orada dua edərkən, Allahdan bir arzum olmuşdur ki, Azərbacanın müstəqilliyini daimi etsin, respublikamızı bugünkü bəladan qurtarsın. O müqəddəs yerlərdə arzularımdan biri də bu oldu ki, vətən, torpaq yolunda, Azərbaycanın müstəqilliyi yolunda şəhid olanlara Allah bir daha rəhmət etsin. Mən o müqəddəs yerlərdə olarkən, Allah-Taaladan arzu etdim ki, Azərbaycan xalqını hifz etsin, xalqımın bundan sonra heç bir bəlaya düçar olmasına yol verməsin".

O, nəinki islam dininə, başqa dinlərə də hörmətlə yanaşır, onların da dini bayramlarını rahat şəkildə keçirməsinə şərait yaradırdı. 1995-ci il yanvarın 7-də Milad bayramı münasibətilə Bakıda kamera musiqi salonunda keçirilən mərasimdə respublikanın pravoslav xristianlarına müraciətindən: "İslam dini, Məhəmməd Peyğəmbər (s.ə.) İsa Peyğəmbərə ehtiramla yanaşmışdır. Məlum olduğu kimi, islamın müqəddəs kitabı Qurani-Kərimin surələrindən biri də xristianlığa həsr edilmişdir. Xristian dininə sitayiş edən vətəndaşlara da bizdə həmişə ehtiram göstərilmiş və onlar digər vətəndaşlarla bərabər hüquqlardan istifadə etmişlər. Azərbaycanda beynəlmiləlçilik hissi, bir-birinə qarşı dözümlü olmaq, Azərbaycan xalqının başqa xalqlara, xristianlara hörməti həmişə nümunəvi xarakter daşımışdı". Elə bu kimi tədbirlərin keçirilməsi ilə bağlıdır ki, bu gün də dünya ictimaiyyəti Azərbaycanı tolerant ölkə olaraq tanımaqdadır.

1995-ci il iyunun 9-da Aşura günü və 1996-cı il 9 dekabr Məbəs bayramı -Məhəmməd Salavatullaha Peyğəmbərlik verilən gün münasibətilə keçirilən mərasimdə iştirak edərək bildirmişdir ki, dinimiz azaddır. Hər bir azərbaycanlı, hər bir müsəlman öz dininə itaət etməkdə sərbəstdir. Xalqımızın belə azad, sərbəst şəraitdə yaşaması bizim üçün nailiyyətdir, eyni zamanda, gələcək üçün böyük əsasdır". Bundan əlavə biz müsəlmanların Allah-Taalanın buyuruğu, Peyğəmbər Məhəmməd Əleyhisəlamın bizə göstərdiyi yolla, müqəddəs kitabımız Qurani-Kərimin verdiyi tövsiyələr yolu ilə əsrlər boyu getmişik, bu gün də bu yolla gedirik. Çünkü bu yol sülh yoludur, bu yol mehribanlıq, dostluq, əmin-amanlıq yoludur. Qurani-Kərimin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir.

1997-ci il iyulun 23-də islam dininin banisi Məhəmməd Əleyhissəlamın müqəddəs Mövludu günündə Bakının Şıx qəsəbəsində Bibiheybət məscidinin bərpasına başlanması mərasimində iştirak etmiş, 1997-ci il dekabrın 10-da Tehranda İran İslam Respublikası Ali Dini rəhbəri Ayətullah Seyid Əli Xamneyi ilə görüşərək bildirmişdir ki, xalqımız öz dinindən heç vaxt ayrılmayıbdır, onu qəlbində, ürəyində saxlayıb və imkan olan kimi, hər şey açılıbdır. Bu da dinimizin - islam dininin nə qədər qüdrətə, gücə malik olduğunu bir daha göstərir" deməklə öz münasibətini bildirmişdir.

Onun vətəndaşlıq idealını, dövlətçilik əqidəsini, milliliyini və eyni zamanda, digər mədəniyyətlərə açıqlığı, tarixi ənənə və tərəqqinin vəhdətini ehtiva edən azərbaycançılığın təməl anlayışlarından biri də xalqımızın eyni tarixi köklər, dil, mədəniyyət və mənəviyyat ortaqlığı ilə bağlandığı türk və islam dünyası ilə birliyinin prioritetliyidir. O, islama təkcə din kimi deyil, milli mənsubiyyətimizi ifadə edən dayaq kimi baxırdı. Bu mənada, türk xalqlarının birliyini, islamı Azərbaycan xalqının və bütün müsəlmanların "ən ali əxlaq mənbəyi" hesab edən Heydər Əliyev bütün fəaliyyəti boyu milli-mənəvi və dini-əxlaqi meyarlara əsaslanır və bu meyarlar Onun dövlət siyasətinin milliliyində və humanistliyində köklənirdi. Məhz bu ideya milli-dirçəliş konsepsiyasının özəyini təşkil edir.

Həmin ideyaları xalqımıza çatdırarkən, Ulu Öndər qeyd edirdi ki, ikinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəstixəti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər. Əcdadlarımız özünəməxsus irs yaratmışdı. Bunu istər Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmış abidələr, istərsə də, bu günə qədər gəlib çatmış xalq ədəbiyyatı və yazılı ədəbi irsimiz sübut edir. Buna misal kimi Ulu Öndərin 1998-ci il iyunun 13-də "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Fərmanı xüsusi məna kəsb edir. Heydər Əliyevin mədəniyyət nəzəriyyəsini öyrənərkən, burada biz prinsipial dövlətçilik mövqeyini, azərbaycançılıq ideologiyasını, bütövlüklə müşahidə edirik. 1998-ci ildə ikinci dəfə prezident seçilməsi ilə əlaqədar rəsmi qəbulda Ulu Öndər demişdir: "Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır. Azərbaycan haqqında hər bir vətəndaş öz ürək sözlərini deyə bilər. Mənim ürəyim daim öz doğma vətənim Azərbaycanla bağlı, Azərbaycan haqqında hissiyyatlarla dolu olubdur".

Bu anlamlar sırasında milli mənlik şüuru, ana dili, dini və milli-mənəvi dəyərlərə sadiqlik, əxlaq və ədalət, türk-islam birliyi, klassik irs və müasirlik arasında varislik, xəlqilik və bəşərilik kimi mühüm məsələlər sadalanır və təhlil olunur. Ulu Öndər Heydər Əliyevin din siyasəti yalnız ölkə miqyası ilə məhdudlaşmayaraq, universal səciyyə daşıyırdı. Bu siyasət lokal-milli sərhədləri aşaraq, qlobal mündəricə kəsb etmişdi. Heydər Əliyev dünyada islam dininə, sivilizasiyasına qarşı artmaqda olan təhdidlərə diqqətlə yanaşmağı tövsiyə edir, islam ölkələrinin qarşısında duran problemlərin həlli üçün həmrəylik nümayiş etdirməyi vacib hesab edirdi. Bu kontekstdə, o öz tarixi, mədəniyyəti, dini etiqadı və adət-ənənələri ilə islam aləminin ayrılmaz hissəsi olan Azərbaycanın islam dövlətləri ilə, bu dövlətlərin təmsil olunduğu beynəlxalq təşkilatlarla əlaqələrin genişlənməsinə xüsusi əhəmiyyət verirdi. Hazırda müsəlman ölkələrini birləşdirən ən nüfuzlu beynəlxalq təşkilat İslam Konfransı Təşkilatıdır (TKT). Beynəlxalq aləmdə, bəzən "müsəlman BMT-si" adlandırılan İKT öz üzvlərinin sayına və mütəşəkkilliyinə görə dünya siyasətində xüsusi yeri olan qurumlardan biridir. Dini birlik əsasında yaradılan bu təşkilatın əsas məqsədləri, onun Nizamnaməsində qeyd edildiyi kimi, üzv dövlətlər arasında islami həmrəyliyi möhkəmləndirmək; elm, mədəniyyət, sosial-iqtisadi və başqa vacib sahələrdə əməkdaşlığı dəstəkləmək; irqi ayrı-seçkiliyin və müstəmləkəçiliyin bütün formalarının ləğv olunmasına səy göstərmək; işğal edilmiş müqəddəs yerlərin azad edilməsi və toxunulmazlığının təmin edilməsinə nail olmaq; bütün islam xalqlarının istiqlaliyyət uğrundakı mübarizəsinə yardım göstərmək; üzv dövlətlərin digər ölkələrlə əməkdaşlığı üçün şərait yaratmaq və s. ibarətdir. Hal-hazırda təşkilat öz sıralarında 58 ölkəni birləşdirir. Bəzi ölkələrin müsəlman icmaları, bir sıra regional və beynəlxalq təşkilatlar İKT nəzdində müşahidəçi statusuna malikdirlər. Məlum olduğu kimi, keçmiş SSRİ-nin müsəlman respublikaları arasında Azərbaycan, birinci olaraq, İKT- yə üzv olmaq üçün müraciət etmiş və 1991-ci ilin dekabrında təşkilata qəbul edilmişdir. Lakin Azərbaycanın İKT ilə əlaqələrinin ilk dövründə əhatə edən 1991-1993-cü illərdə bu əlaqələr lazımi səviyyədə olmamış, təşkilatın imkanlarından Azərbaycanın maraqları üçün lazımınca istifadə edilməmişdi. 1994-cü ildə Heydər Əliyev bununla bağlı qeyd edirdi ki, Azərbaycan bu təşkilata üç il bundan əvvəl daxil olsa da, ölkəmizin problemləri orada indiyədək geniş işıqlandırılmayıb, yəni tam aydın olmayıb. Ötən üç ildə Azərbaycan İKT ilə müəyyən əməkdaşlıq etsə də, bu, çox da səmərəli olmayıb. Əgər bu müddət ərzində intensiv işlər görülsəydi, ölkəmizin beynəlxalq aləmdə mövqeyi daha möhkəm olardı, öz müstəqil siyasətini yeritmək üçün o, daha böyük imkanlara malik olardı. Akademik Ramiz Mehdiyev yazır: "Azərbaycanda müxtəlif məzhəblər var, ancaq bu məzhəblər arasında toqquşma halları yoxdur. Halbuki islam dünyası məzhəb ixtilafı, təriqət çəkişmələrindən çox əziyyət çəkir. Azərbaycanda isə müasir dövlətin yaradıcısı Heydər Əliyevin dərin zəkası və qətiyyətliliyi, eləcə də, dini liderlərin təcrübəliliyi həmin bəlanın qarşısına möhkəm, keçilməz sədd çəkmişdi".

Göründüyü kimi, dini dəyərləri xalqımızın tarixən formalaşmış milli-mənəvi və etnik dəyərlərinin ayrılmaz hissəsi hesab etmək düzgün olar. Bütün bunlar artıq tarixi mərhələdən çıxaraq günün tələbatıdır, çünki müasir dövrdə mədəni və etnik birlik olmadan, dövlət tolerantlığı olmadan sabitliyini təmin edə və normal inkişaf edə bilməz, o, yüksək mənəviyyatın və əxlaqi mədəniyyətin təzahürüdür. Bu xüsusiyyət polietnik cəmiyyətdə müxtəlif baxışların, sosial əhval-ruhiyyənin, fərqli ideya və dünyagörüşlərinin tarazlaşdırılması üçün zəruri olan sosial mexanizmdir. Tolerantlıq, ziddiyyətlərin olub-olmamasından asılı olmayaraq, mövcudluğu zərurətin nəticəsidir. Onun fenomeni etnik millətçiliyə qarşı dayanmasındadır. Tolerantlıq cəmiyyətin mənəvi, sosial və milli birliyini təmin edən dövlət mövqeli millətçiliyə qarşı dayanmır. O, ictimai həyatın strukturundakı sosial gərginliyin və diskomfortun katalizatoru olan meyilləri dağıdır.

Tolerantlığın tərifini verdikdə, Ümummilli Liderimiz demişdir: "Toleranılıq həm insani münasibətlərin, həm insan səviyyəsində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. O, təkcə dinlərin bir-birinə dözümlüyünü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərinə dözümlülük deməkdir".

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 13 dekabr


## Bakcell müsabiqədə qalib gələn məktəbliləri mükafatlandırdı

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti və Azərbaycanın ilk FTTH provayderi olan ENGİNET şirkəti "İnternetdə uşaqların təhlükəsizliyi" layihəsi çərçivəsində keçirilmiş "Bakı şəhər məktəbləri arasında video-çarx müsabiqəsi"nin qaliblərini mükafatlandırıb.



"Bakı şəhər məktəbləri arasında video-çarx müsabiqəsi" Təhsil Nazirliyinin dəstəyi ilə icra olunan "İnternetdə uşaqların təhlükəsizliyi" layihəsi çərçivəsində həyata keçirilib. Bakcell və ENGİNET şirkətlərinin birgə dəstək göstərdiyi layihə çərçivəsində Bakıdakı 165, 280, 291, 211, 225, 177 və 271 nömrəli tam orta məktəblərinin şagird və pedaqoji heyəti ilə görüşlər keçirilib. Görüşlərdə internetdən düzgün və təhlükəsiz istifadə qaydaları, mövcud təhlükələr və təhlükəli məzmunlardan qorunmaq üçün nəzərdə tutulmuş alətlər barədə geniş məlumat verilib.

291 nömrəli Ekologiya liseyinin şagirdləri Mustafayev Tuncay və Niftəli Ayşən, 211 nömrəli məktəbdən Qəribova Fidan, Əlisəttarova Aylin, Ramazanova Mədinə, Xəlilov Vüsal, Mirzəyeva Əsmət və 271 nömrəli məktəbdən Məmmədov Ayxan, Göyüşlü Banu, Əkbərli Hüseyn, Quluzadə Nurlan və Süleymanova Mədinə müsabiqənin qalibləri seçilib. Bakı şəhərinin 211 nömrəli tam orta məktəbində keçirilmiş mərasim zamanı müsabiqədə qalib gəlmiş məktəblilərə Bakcell və ENGİNET şirkətləri tərəfindən xüsusi hədiyyələr təqdim edilib.

Qeyd edək ki, Bakcell bir neçə il il bundan əvvəl istifadəyə verilmiş və artıq 4G şəbəkəsində də fəaliyyət göstərən "Təhlükəsiz İnternet Paketləri" uşaqlar üçün internetdən istifadənin təhlükəsiz olmasını təmin edir. Bu internet paketləri və ENGİNET şirkətinin "İnternet Filtrasiya Xidməti" sayəsində Bakcell abunəçiləri öz uşaqlarının internetdən təhlükəsiz istifadəsini təmin edə və onları zərərli və istənilməyən məzmundan qorumaq imkanına malikdirlər. "Təhlükəsiz İnternet" paketləri haqqında daha ətraflı məlumat https://www.bakcell.com/az/internet-safe-internet səhifəsinə əks olunur.

## "Nar"-dan Yeni il ərəfəsində sərfəli rominq təklifləri




"Nar" qış mövsümündə və Yeni il ərəfəsində xaricə səyahətə çıxan abunəçilər üçün yeni sərfəli rominq paketləri təqdim edir. Artıq "Nar" abunəçiləri xarici ölkələrdə olarkən sərfəli qiymətə təqdim olunan 4 yeni rominq paketindən yararlana bilərlər. Bunun üçün səfərə çıxarkən rominq paketlərindən birini sifariş etmək kifayətdir. Təqdim olunan "Roaming 9" paketi abunəçilərə 500 MB internet, "Roaming 15" paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, "Roaming 18" paketi 1 GB internet, "Roaming 28" paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. "Roaming 18" və "Roaming 28" paketlərində "WhatsApp" vasitəsilə yazılı mesajlar pulsuzdur. Şifariş edilən paketdaxili internet və dəqiqənin balansını yoxlamaq üçün *777#20#YES kodunu yığmaq kifayətdir. "Roaming 9", "Roaming 15" paketlərinin istifadə müddəti 5, "Roaming 18" və "Roaming 28" paketlərinin istifadə müddəti isə 15 gündür.

Rominq paketləri haqqında daha ətraflı məlumatı nar.az saytından və ya 777 nömrəsinə "R" göndərməklə əldə etmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə əhalisinin 97%-ni əhatə edir və 7300-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## ELAN

**ADPU-nun Filologiya fakultəsinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasının I kurs tələbəsi İslamova Xanım Elşad qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**Cəfərov Elçin İldırım oğluna məxsus veteranlıq vəsiqəsi, hərbi bilet və əlillik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

# Bölgələrdə Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı tədbirlər keçirilib

### Astara



Dünən Astarada Azərbaycan dövləti və xalqı üçün gördüyü möhtəşəm işlərlə, tarixə adı qızıl hərflərlə yazılan Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı geniş ümumrayon tədbiri keçirilib. Rayon rəhbərliyi, inzibati orqanların rəhbərləri, ziyalılar, məktəblilər, qocalar, bir sözlə, bütün astaralılar rayonun mərkəhində ucaldılan Ulu Öndər Heydər Əliyevin əzəmətli abidəsini böyük sevgi, sonsuz məhəbbətlə ziyarət edib, əziz xatirəsini 1 dəqiqəlik sükutla yad ediblər. Bu sevgi ilə dekabrın 12-si saat 9.00-dan başlayaraq axşama kimi bütün astaralılar Ulu Öndər Heydər Əliyevin əzəmətli abidəsini ziyarət edir, önünə tər çiçəklər düzərək, xatirəsini ehtiramla yad etməklə, bu əvəzsiz insana məhəbbət və sədaqətlərini nümayiş etdirdilər.

### KÜRDƏMİR




Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı Kürdəmir rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, Yeni Azərbaycan Partiyası rayon təşkilatının şura və idarə heyəti üzvləri, ağsaqqallar və ziyalılar, veteranlar, gənclər, rayonunun əmək kollektivlərinin üzvləri, ictimaiyyət nümayəndələri və rayon sakinləri səhər saatlarında Ulu Öndər Heydər Əliyev Parkına gələrək, Ulu Öndərin xatirəsinə ucaldılan abidəsi önünə gül dəstələri düzüblər. Sonra rayonun Heydər Əliyev Mərkəzində Kürdəmir rayon icra hakimiyyətinin və Yeni Azərbaycan Partiyası rayon təşkilatının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunan "Dahi Şəxsiyyət" adlı dəyirmi masa təşkil edilib. Tədbir "Dahi Şəxsiyyət-Heydər Əliyev" filminin nümayiş etdirilməsi ilə başlayıb.

Dəyirmi masada "Heydər Əliyev və Yeni Azərbaycan Partiyası" mövzusunda Yeni Azərbaycan Partiyasının Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli, "Heydər Əliyev və Azərbaycan" mövzusunda şəhər 6 saylı tam orta məktəbin direktoru Elmira Şıxaliyeva, "Xalqına bağlanan ömür" mövzusunda YAP Kürdəmir rayon təşkilatının qadınlar şurasının sədri Sevda Sadıqova çıxış edərək, Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası, müstəqil Azərbaycanın quruculuğu yolundakı şərəfli mübarizəsi, bütün dünya tərəfindən qəbul edilən böyük siyasətçi və liderlik titulları barədə geniş fikirlər söyləyiblər. Tədbirdə çıxış edən rayon icra akimiyyətinin başçısı Ceyhun Cəfərov bildirib ki, müstəqil Azərbaycanın banisi, Ümummilli Liderimiz Heydər Əliyevin vəfatından 15 il ötür: "Tarixi şəxsiyyət olan Ulu Öndərimiz bütün həyatını dövlətçiliyimiz, xalqımızın bu günü və gələcəyi naminə həsr edərək güclü, sarsılmaz və qüdrətli bir dövləti-Azərbaycanı bizə bəxş etdi. Heydər Əliyevin ölməz, əbədi xatirəsini xalqımız hər an yad edir və xatırlayır".

### TƏRTƏR



Ümummilli Lider Heyder Əliyevin anım günü ilə əlaqədar YAP Tərtər rayon təşkilatı və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə ümumrayon tədbiri keçirilib. Tədbirdə rayonun idarə, müəssisə və təşkilatlarının, təhsil müəssisələrinin, hüquq-mühafizə orqanlarının rayon ərazisində yerləşən "N" saylı hərbi hissənin nümayəndələri iştirak ediblər. Minlərlə rayon sakini rayonun mərkəzi meydanda ucaldılan Ulu Öndərin abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri düzərək, ruhuna dualar oxuyublar. Heydər Əliyev Mərkəzində davam edən tədbir mərkəzin foyesində dahi şəxsiyyət Ümummilli Liderin büstü önünə gül dəstələri qoyublar. Həmçinin, tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla, fotostendlərlə tanış olublar. Sonra Heydər Əliyev Mərkəzinin akt zalında keçirilən dəyirmi masa iştirakçıları Ulu Öndərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Anım mərasimində çıxış edən Tərtər rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hələ sağlığında tarixin yaddaşında əbədiləşdiyini bildirib: "Ulu Öndər Heydər Əliyev şah əsəri olan müstəqil Azərbaycanı bütün dünyada şərəf və ləyaqətlə təmsil edib. Xalqımızın milli özünütəsdiqinin parlaq ifadəsinə çevrilmiş müstəqil dövlətçilik konsepsiyası, məhz Heydər Əliyevin adı ilə bağlıdır".


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**